## Şahin Verdiyevin cəsədi dağıntılar altından çıxarılıb

Malatyada dağıntılar altında qalan 3 azərbaycanlı tələbənin axtarışı isə davam edir



**Malatyada dağıntılar altında qalan 4 azərbaycanlı tələbədən birinin cəsədi tapılıb.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, Şahin Verdiyevin cəsədi dağıntılar altından çıxarılıb. Digər üç nəfərin axtarışı davam edir.

*Qeyd edək ki, Türkiyədəki zəlzələdən sonra Malatyadakı İnönü Universitetinin azərbaycanlı tələbələri Samir Quliyev, Şahin Verdiyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə barədə məlumat almaq mümkün olmayıb.*



## Əfv Komissiyasının iclası keçirilib

100-dən çox müraciətə baxılıb

**Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb. Bununla da iclaslarda baxılan məsələlərin sayı 600-ü ötüb. Komissiyanın növbəti iclası isə fevralın 23-də keçiriləcək.


№ 28 (5789) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 fevral 2023-cü il (çərşənbə)




## Bakı şəhəri üçün sərnişindaşıma modeli hazırlanıb

**Beynəlxalq Nəqliyyat Forumunun (BNF) ekspertləri tərəfindən hazırlanmış Azərbaycan üçün yükdaşıma modeli, Bakı şəhəri üçün sərnişindaşıma modeli və BNF-nin qlobal yükdaşıma modelinin təqdimatı keçirilib.**

Bu təqdimat Bakıda keçirilən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və BNF ilə birgə həyata keçirilmiş "Azərbaycanda 2019-2022-ci illər ərzində nəqliyyatın dekarbonizasiyası" layihəsinin yekunu olaraq Azərbaycanda Nəqliyyatın Dekarbonizasiyası Regional Dialoq Tədbirində baş tutub.

"Şərq" xəbər verir ki, tədbir çərçivəsində nəqliyyatın dekarbonizasiyası ilə bağlı oxşar problemlərlə üzləşən ölkələr arasında fikir mübadiləsi aparılıb.

Regional tədbir Almaniyanın İqtisadiyyat və İqlim Dəyişikliyi üzrə Federal Nazirliyi tərəfindən maliyyələşdirilən "İnkişaf etməkdə olan Ölkələrdə Nəqliyyatın Dekarbonizasiyası" layihəsinin bir hissəsini təşkil edir.

(səh.2)

## Dövlət Gömrük Komitəsinə sədr təyin edildi

Prezident İlham Əliyev sərəncam imzalayıb



**Prezident İlham Əliyev Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilib.

Dövlət başçısının digər sərəncamı ilə Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilib.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## "Türkiyə tək ürək"

Türkiyənin səkkiz telekanalı ortaq yayım həyata keçirəcək



**Fevralın 15-də Türkiyənin səkkiz televiziya kanalı Kahramanmaraş zəlzələsindən zərər çəkənlərə yardım kampaniyası çərçivəsində ortaq yayım həyata keçirəcək.**

Anadolu agentliyi xəbər verir ki, "Türkiyə tək ürək" adlı ortaq yayım ATV, FOX, Kanal D, Kanal 7, Show TV, Star TV, TRT 1 və TV8 telekanalları tərəfindən təşkil olunacaq. Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Adana, Osmaniye, Malatya, Diyarbakır, Şanlıurfa və Kilis vilayətlərində zərərçəkənlər üçün Türkiyənin tək ürək olacağı yardım kampaniyası səkkiz telekanalda eyni vaxtda canlı yayımlanacaq. Ölkənin incəsənət, biznes və idman aləminin məşhur simaları zərərçəkənlərə dəstək olacaq. Həmin telekanalların serial və proqramlarının sevilən aktyorlarının, aparıcılarının iştirak edəcəyi yardım kampaniyası yerli vaxtla saat 20:00-da başlayacaq və yığılan vəsait AFAD-ın və Türkiyə "Qızıl ay" cəmiyyətinin hesabına köçürüləcək.

# Vardanyan zorla Qarabağa qaytarıldı

Bu, Kremlin Azərbaycana qarşı təxribatçı siyasətini davam etdirməsindən xəbər verir



**Erməni əsilli Rusiya vətəndaşı, milyarder Ruben Vardanyan Qarabağdan Moskvaya qaçmışdı. Vardanyanın hansı yollarla Qarabağdan qaçdığı suallar yaratmışdı.**

Rubenin Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının avtomobillərində gizlənərək Qarabağdan qaçdığı bildirilirdi. Moskvada olarkən Ruben Vardanyan israrla Qarabağa qayıtmaq istəmədiyini bildirib. Hətta Vardanyan Qarabağda müxtəlif erməni qruplaşmalar tərəfindən ona qarşı sui-qəsd olunacağı ehtimalının da olduğunu deyib və bundan sonra tapşırıqlara uyğun şəkildə hərəkət edə bilməyəcəyini vurğulayıb. Lakin yalvarışları Vardanyanı xilas edə bilməyib.

(səh.2)

## Bu gündən marketlərdə polietilen torbalar ödənişli olacaq

Kompleks tədbirlər görülmədən ancaq torbaları pullu etməklə məqsədə nail olmaq mümkün olmayacaq



**Bu gündən marketlərdə alıcılara verilən polietilen torbalar ödənişli olacaq.**

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Ticarət Şəbəkələrinin İnkişafı" İctimai Birliyinə məktub ünvanlanıb.

(səh.4)



## Ermənistan XİN rəhbəri Türkiyənin zəlzələ bölgəsinə səfər edəcək

**Fevralın 15-də Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Türkiyəyə səfər edəcək.**

APA xəbər verir ki, bunu Ermənistan XİN-in sözçüsü Vahan Hunanyan bildirib.

"Nazir Mirzoyan Adıyaman şəhərində axtarış-xilasetmə əməliyyatları aparan Ermənistanın xilasedicilərı ilə görüşəcək.

Ankarada Ermənistan xarici işlər naziri Ararat Mirzoyan və Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu arasında görüş keçiriləcək", - deyə o bildirib.

## Ölən olmayıb

Azərbaycanda 16 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 21 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən ölən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 828 251 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 007 nəfər müalicə olunaraq sağalıb, 10 099 nəfər vəfat edib, aktiv xəstə sayı 145 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 871, hazırkı dövrədək isə 7 507 868 test aparılıb.*

## Ekspertdən maraqlı təklif

Taksi sürücüləri sərnişinlərin nömrəsini görməsə yaxşıdır



**Paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində müxtəlif taksi şirkətlərinin sürücüləri tərəfindən 9 hüquqpozma faktı aşkar olunub.**

Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib .

Məlumata görə, onlardan 1-i dələduzluq cinayəti, 8 fakt isə qadın sərnişinlərə qarşı qeyri-etik təkliflərlə bağlı olub. Texniki vasitələrə aşkarlanan hüquqpozma halları ilə bağlı 8 sürücü inzibati məsuliyyətə, 1 sürücü isə cinayət məsuliyyətinə cəlb edilib.

(səh.5)



## Paşinyan ölkəsini ən ağır duruma salıb

Rusiya Ermənistanın bütün nəfəsliklərini qapatmağa çalışacaq

(səh.2)



## Göz görə-görə vətəndaşlarımızı qəzalı binalarda yaşada bilmərik

Tural Abbaslı: "Yeni binaların texniki baxışı mütləq olmalıdır, boşluqlar dərhal aradan qaldırılmalıdır"

(səh.5)

# Prezident İlham Əliyev İqor Xovayevi qəbul edib

## Görüşdə Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq, əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev, həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verdi.

# Bakı şəhəri üçün sərnişindaşıma modeli hazırlanıb



**Beynəlxalq Nəqliyyat Forumunun (BNF) ekspertləri tərəfindən hazırlanmış Azərbaycan üçün yükdaşıma modeli, Bakı şəhəri üçün sərnişindaşıma modeli və BNF-nin qlobal yükdaşıma modelinin təqdimatı keçirilib.**

Bu təqdimat Bakıda keçirilən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və BNF ilə birgə həyata keçirilmiş "Azərbaycanda 2019-2022-ci illər ərzində nəqliyyatın dekarbonizasiyası" layihəsinin yekunu olaraq Azərbaycanda Nəqliyyatın Dekarbonizasiyası Regional Dialoq Tədbirində baş tutub.

"Şərq" xəbər verir ki, tədbir çərçivəsində nəqliyyatın dekarbonizasiyası ilə bağlı oxşar problemlərlə üzləşən ölkələr arasında fikir mübadiləsi aparılıb.

Regional tədbir Almaniyanın İqtisadiyyat və İqlim Dəyişikliyi üzrə Federal Nazirliyi tərəfindən maliyyələşdirilən "İnkişaf etməkdə olan Ölkələrdə Nəqliyyatın Dekarbonizasiyası" layihəsinin bir hissəsini təşkil edir.

Tədbirdə Özbəkistan, Monqolustan, Hindistan və Argentinanın müvafiq qurumlarının, eləcə də BMT-nin İnkişaf Proqramı və Asiya İnkişaf Bankının mütəxəssisləri iştirak ediblər.

*Qeyd edək ki, bu layihənin məqsədi nəqliyyatda CO2 emissiyalarını azaltmaq üçün nəqliyyat emissiyalarına dair ümumi qiymətləndirmə çərçivəsinin hazırlanması və ölkələrin iqlim məqsədlərinə çatması üçün onlara dəstək verilməsidir.*

## Zəlzələ bölgəsindən 513 Azərbaycan vətəndaşı təxliyə olunub

**Türkiyədə baş vermiş zəlzələdən zərər çəkmiş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilməsi və onlara köməklik göstərilməsi istiqamətində işlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində, Türkiyə Respublikasındakı Səfirliyində, İstanbul və Qars şəhərlərindəki Baş konsulluqlarında yaradılmış Operativ Qərargahlar tərəfindən Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhsil Nazirliyi, Səhiyyə Nazilriyi və digər qurumlar ilə intensiv əməkdaşlıq şəraitində davam edir.**

Bu barədə XİN məlumat yayıb.

Zəlzələ baş vermiş gündən etibarən 513 nəfər Azərbaycan Respublikası vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları zəlzələ bölgəsindən Azərbaycana təxliyə olunub.

Zəlzələnin baş verdiyi Kahramanmaraş, Hatay, Adana, Malatya, Adıyaman, Qaziantep, Şanlıurfa, Osmaniyə, Kilis və Diyarbakırda təxliyə prosesi davam etməkdədir.

Eyni zamanda, zəlzələ bölgəsində yaşayan və ya müvəqqəti məskunlaşan, Azərbaycan Respublikasına təxliyə olunmaq niyyətində olmayan vətəndaşlarımızın diqqətinə çatdırırıq ki, zərər görmüş əraziləri tərk etmək istəyənlər üçün müvafiq vilayətlərdə jandarma bölmələri tərəfindən təxliyə məntəqələri yaradılmışdır (Təxliyənin həyata keçiriləcəyi yerlərin siyahısı əlavə olunur). Bu məntəqələrə müraciət edənlərin Türkiyənin təhlükəsiz bölgələrinə təxliyəsi Türkiyənin aidiyyəti qurumları tərəfindən ən uyğun hesab edilən vasitələrlə təmin edilir.

Fəlakət bölgəsini fərdi nəqliyyat vasitələri ilə tərk etmək istəyənlər ərazini tərk etmədən öncə yerlərdəki təxliyə məntəqələrini bununla bağlı xəbərdar etdikdən sonra təyinat şəhərlərindəki sığınacaq məntəqələrinə istiqamətləndiriləcəklər.

# Paşinyan ölkəsini ən ağır duruma salıb

## Rusiya Ermənistanın bütün nəfəsliklərini qapatmağa çalışacaq

**Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan deyib ki, Qərb İrəvanın güc strukturlarında öz əlaltılarının olmasını təmin etməyə çalışır. Onun sözlərinə görə, Paşinyanın əməlləri sayəsində geosiyasi toqquşma o həddə çatıb ki, hüquq-mühafizə orqanları və onların rəhbərləri parçalanır:**

"Birbaşa baş nazirin nəzarətində olan Xarici Kəşfiyyat Xidməti yaradıldı. Əvvəllər onların işini Milli Təhlükəsizlik Xidməti icra edirdi. Xarici Kəşfiyyat Xidmətinin rəisliyinə namizədlərin adı, həmçinin müraciət edənlərin adlarının hansı xarici qüvvələrlə bağlı olduğunu nəzərə alsaq, bunun növbəti psevdoislahat olduğu aydın görünür. Bütün bunlar Paşinyanın tərəddüd etdiyi hallarda "komanda" üzvlərinin ona geosiyasi məsələlərdə "düzgün oriyentasiyaya" kömək etməsi üçündür". Aşotyan qeyd edib ki, Ermənistanın idarəçilik sistemində artıq Qərbin etibarlı şəxsləri var: "Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Qərbin himayəsindədir. Nikolun komandasında belə müdafiəçilər çoxdur. Bu sxem yeni deyil, analoji sxemdən vaxtilə həm Ukraynada, həm də Gürcüstanda istifadə olunub. Geosiyasi mübarizə kontekstində Qərb Ermənistanda "proksi" strukturlar yaratmaqla öz təsirini təmin etməyə cəhd edir. Patrul xidmətinin yaradılması məhz belə bir layihədir".

KTMT-nin Birləşmiş Qərargahının rəisi Anatoli Sidorov da deyib ki, rəsmi Vaşinqton və Brüssel təhlükəsizlik modeli üçün Ermənistana öz formatlarını tətbiq etmək istəyirlər. Onun sözlərinə görə, təhlükəsizlik üçün təhdidlərin əsas mənbəyi Qərb elitasının bir hissəsinin dağıdıcı fəaliyyətidir: "Bu da ilk növbədə bir sıra dövlətlər arasında ərazi məsələlərinin həll olunmamasından qaynaqlanır".



**Politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Paşinyan Rusiyadan uzaqlaşma xəttini seçib. Lakin Ermənistanın təhlükəsizlik, ordu, polis sistemində Kremlin təsir agentləri kifayət qədər çoxdur:** "Məsələ ondadır ki, artıq Rusiya özü Ermənistandan çəkilməyə hazırlaşır. Əgər bu baş versə, Ermənistan istər-istəməz öz imkanlarını və gücünü nəzərə alaraq addımlar atmalı olacaq. Bu zaman sözsüz ki, Ermənistan daha real siyasət həyata keçirməyə məcbur olar. Ermənistanın bundan sonra Qərbyönlü siyasətə start veribverməyəcəyini dəqiq demək çətindir. Paşinyan istəyir ki, Rusiya onların təhlükəsizliyini təmin etsin, rəsmi İrəvan da Avropa və qərblə iqtisadi münasibətlərini inkişaf etdirsin. Amma Qərbin Rusiya tərəfindən təhlükəsizliyi qorunan Ermənistanla iqtisadi münasibətlərini dərinləşdirməyə maraq göstərəcəyinə inanmıram. NATO Ermənistanı özünə üzv etməkdə maraqlı deyil. İndi Ermənistan böhran qarşısındadır. Əgər Paşinyan Qərbə inteqrasiya yolunu seçəcəksə, o zaman bu, İrəvanın Moskva ilə münasibətlərinin kəskinləşməsinə səbəb olacaq. Belə olduğu təqdirdə Rusiya Ermənistanın bütün nəfəsliklərini qapatmağa çalışacaq. Lakin Qərbin dəstəyi nəticəsində Paşinyan hər fürsətdən istifadə edərək, çalışır ki, KTMT və Rusiya ilə məsafə saxlasın".

Analitikə görə, bunun başlıca səbəbi İrəvanın KTMT-dən incik düşməsilə bağlıdır: "Ona görə də İrəvan birmənalı şəkildə təşkilatın təliminin ölkəsində keçirilməsini məqsədəuyğun hesab etməyərək, demarş edir. Ehtimal etmək olar ki, Paşinyanın bu demarşı ona baha başa gələcək. Çünki Rusiya ona qarşı yönələn hərəkətləri heç zaman bağışlamır".

**İsmayıl Qocayev**

# Erməni "xilasedicilər" soyğunçuluqla məşğuldur

## Ciblərindən türklərə məxsus pasportlar, digər sənədlər də çıxıb



"Bu məsələ üzərində Türkiyənin hüquq-mühafizə orqanları ciddi dayanmalıdır"

**Ermənilər bir daha dünyaya öz xislətlərini, əsl simalarını nümayiş etdiriblər. Türkiyəyə zəlzələdən zərər çəkənlərə kömək adı altında gedən erməni "xilasedicilər"in soyğunçuluqla məşğul olduqları üzə çıxıb. Milli İstihbarat Təşkilatının (MİT) əməkdaşları Adıyaman şəhərində zəlzələ zamanı dağılmış evdən qarət və oğurluq etdiklərinə görə Arsen Qazaryan və Vahan Sürmalyanı saxlayıblar.**

Axtarış zamanı onların üzərindən ölən Türkiyə vətəndaşlarının sənədləri, şəxsi əşyaları və qızıl-zinət əşyaları aşkar edilib. Hatay vilayəti prokurorluğu talan maddəsi ilə cinayət işi açıb. Həbs olunanların hər ikisi Ermənistandan olan xilasedici qrupun nümayəndələridir. Baş vermiş hadisə Türkiyə tərəfində ciddi məyusluqla yanaşı, həm də hiddətə səbəb olub.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, hər kəs bilməlidir ki, erməni toplumu dünyadakı xalqlardan tamamilə fərqlənir. Partiya rəhbərinin sözlərinə görə, ermənilər bəşəriyyətə yaraşmır:** "Düzdür, adətən 5-10 adamın hərəkəti, davranışı ümumən bütün millətə şamil olunmur. Amma bu yanaşma ermənilərə aid deyil. Ermənilər elə bir toplumdur ki, aralarında yaxşıları demək olar ki, yoxdur. Ermənilərə "dövlət" qurulmamışdan öncə, yəni dini icma kimi yaşadıqları dövrdən etibarən barələrində ancaq mənfi, pis fikirlər söylənilib. Ermənilər haqqında deyilmiş bir cümlə xoş ifadə yoxdur, çünki hər zaman insanlığa yaraşmayan addımlar atıblar. Türkiyədəki zəlzələdən sonra Ermənistanın yardım göndərəcəyi xəbərini eşidən kimi dedim ki, bunlardan xeyir gəlməz. Belə qənaətə gəldim ki, mütləq mənada məkirli niyyətləri, hansısa planları var. Məhz həmin məqsədlə Türkiyəyə "xilasedici" və "yardım" adı altında gediblər. Zəlzələni də özləri üçün fürsət biliblər. Hesab edirdim ki, Azərbaycanla Türkiyə arasında müəyyən narazılıq, soyuqluq yaratmağa cəhd göstərəcəklər. İndi görürük ki, erməni tərəfinin məqsədi daha ciddiymiş".

*A.Nağı vurğulayıb ki, zəlzələdə zərər görmüş şəxsləri soymaq, onların qızıl-zinətlərini, qiymətli əşyalarını qəsb etmək ermənilərin qanına işləmiş oğurluq, quldurluq xislətindən irəli gəlir:* "Amma ermənilərin cibindən türklərə məxsus pasportlar, digər sənədlər də çıxıb. Bu məsələ üzərində Türkiyənin hüquq-mühafizə orqanları ciddi dayanmalıdır. Görünür, Ermənistanın xüsusi xidmət orqanları ora göndərilən ermənilərə tapşırıq verilib ki, nə vaxtsa Türkiyə və Azərbaycana qarşı istifadə etmək, təxribatlar hazırlamaq məqsədilə müəyyən sənədləri toplasınlar. Bəlkə də terror aktları təşkil etmək və suçu başqalarının üzərinə atmaq üçün zəmin hazırlamaq tapşırıqları alıblar. Türkiyə bu məsələni bütün dünyaya ifşa etməlidir ki, beynəlxalq aləm ermənilərin iç üzünü görsün və erməni yalanlarına aldanmasın".

**İsmayıl Qocayev**

# "Elektron məhkəmə"nin üstünlüyü çoxdur

## Amma bunun problem yaradan tərəfləri də var

**Artıq məhkəmələrin 80 faizə qədərində tətbiq edilən "Elektron məhkəmə" sisteminin yaxın aylarda ölkənin bütün məhkəmələrini əhatə etməsi nəzərdə tutulur. Bunu Ali Məhkəmənin 100 illiyinə həsr olunan beynəlxalq konfransda ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov deyib.**

"Elektron məhkəmə sistemi tətbiqi yazılı müraciət qaydası və ya əyani şəkildə məhkəməyə müraciət məlumatların əldə edilməsini tamamilə sıradan çıxarmamalıdır"



Onun sözlərinə görə, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması məqsədilə məhkəmə sistemi təkmilləşdirilib və 40-dək yeni məhkəmə, o cümlədən bütün bölgələrdə apellyasiya məhkəmələri, inzibati ədliyyə institutu yaradılıb. Mövcud məhkəmə infrastrukturu Dünya Bankının iştirakı ilə müasirləşdirilərək paytaxtda və bölgələrdə 35 məhkəmə üçün yüksək texnoloji - hi-tech bina və komplekslər inşa olunaraq istifadəyə verilib. "Bu məhkəmələrin əksəriyyətinin ölkə Prezidenti tərəfindən açılışının şəxsən həyata keçirilməsi məhkəmə hakimiyyətinə dövlətimizin verdiyi müstəsna dəyərin bariz təzahürüdür. Eyni zamanda məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə məhkəmə fəaliyyəti elektronlaşdırılıb, insanların məhkəməyə müraciət etdiyi andan məhkəmə qərarının icrasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi yaradılıb. Artıq məhkəmələrin 80 faizə qədərində tətbiq edilən bu sistemin yaxın aylarda ölkənin bütün məhkəmələrini əhatə etməsi nəzərdə tutulur", - deyə F.Məmmədov əlavə edib. Elektron məhkəmə hüquq sisteminin təkmilləşməsində, həmçinin məlumatlara əlçatanlığın artırılmasına nə dərəcədə kömək edəcək?

**Elektron məhkəmə sisteminin təkmilləşməsi barədə "Şərq"ə danışan vəkil Adəm Məmmədov qeyd etdi ki, bu, müasir dövrdə tələb olunan yenilikdir:**

- Dövrün tələbləri dəyişir, eləcə də məhkəmə-hüquq sistemində yeniliklər labüddür. Pandemiya şəraitində gördük ki, elektronlaşdırma zəruri hal aldı. Məsafədən idarəetməyə keçiddə elektron sistemlərin, elektron məlumat bazasının aktiv olması həm hüquqşünaslara, həm də vətəndaşa əlavə imkanlar verir. "Elektron məhkəmə"nin üstünlüyü bundadır ki, vətəndaş məhkəmə binasına gəlmədən, elektron sistemə daxil olub hər hansı məhkəmə baxışı, məhkəmə proseslərinin vaxtı barədə məlumat əldə edə bilir. Məhkəmə proseslərinin onlayn izlənməsinə də şərait yaranır. Məsələn, biz vəkillər məhkəmə prosesinə qatılmadan prosesi izləyə bilirik. Üstünlükləri var, amma problem yaradan tərəfləri də var. Hesab edirəm ki, elektron məhkəmə sistemi tətbiqi yazılı müraciət qaydası və ya əyani şəkildə məhkəməyə müraciət, məlumatların əldə edilməsini tamamilə sıradan çıxarmamalıdır. Yeni qaydalara, elektron sistemə uyğunlaşmaq üçün vətəndaşlara zaman tanınmalıdır. Yenilik tətbiq edilməzdən öncə maarifləndirmə işi aparılmalıdır. Hamının düşüncəsi eyni deyil. Vətəndaş elektron məhkəmə sistemi ilə, ondan istifadə qaydası ilə tanış olmaya bilər və ondan istifadə etməkdə çətinlik çəkər. Ona görə də vətəndaşları əvvəlcə maarifləndirmək, "Elektron məhkəmə" sistemindən istifadə qaydalarını öyrətmək lazımdır. "Elektron məhkəmə" sistemi vəkillərin də işini asanlaşdırır. Bu mənada ki, hakim proses gününü təyin edərkən elektron sistemə daxil olub prosesdə iştirak edəcək vəkilin həmin gün, həmin saatda başqa bir məhkəmə baxışında iştirak edib-etməyəcəyini dəqiqləşdirə bilir. Bununla da bir vəkilin eyni vaxtda 2 məhkəmə prosesinə çağırılması aradan qalxır. Bu, müdafiə işini, müvəkkilin hüquqi təminatını asanlaşdırır.

**Məlahət Rzayeva**



# Türkiyə və Yunanıstan arasında buzlar əriyir

## İki qonşu xalq arasında tarixi münasibətlərin qorunması təbii haldır

**Yunanıstan və Türkiyə arasında illər boyu davam edən rəqabət və gərginlik mövcuddur. Xüsusən, son dönəmlər ərazi və enerji mübahisələri, qarşılıqlı hədələr ikili münasibətləri daha da kəskinləşdirmişdi. Lakin seysmik qırılma xətləri üzərində yerləşən iki qonşu ölkə və xalq arasında təbii fəlakətlər zamanı bir-birinə kömək etmək ənənəsi mövcuddur.**

> “Nəzərə alaq ki, Türkiyədə yunan topluluğu, Yunanıstanda isə türklər yaşayır. Tərəflər arasında diplomatik əlaqələrin kəsilməsi mümkün deyil”

Türkiyədə yaşanmış dağıdıcı zəlzələdən sonra yardım əlini uzadan ilk 10 ölkə arasında Yunanıstan da var idi. Yunanıstanın xarici işlər naziri iki ölkə arasında davam edən rəqabətə baxmayaraq, dəstək nümayiş etdirmək məqsədilə Türkiyəyə səfər edib. Xarici işlər naziri Nikos Dendias zəlzələdən zərər çəkmiş bölgələrə uçmazdan əvvəl türkiyəli həmkarı Mövlud Çavuşoğlu tərəfindən səmimi qarşılanıb. Çavuşoğlu deyib ki, Yunanıstan zəlzələdən sonra Türkiyəyə zəng edib yardım təklif edən ilk ölkələrdən biri olub və bu, yunan xalqının Türkiyə və türk əhalisi ilə həmrəyliyinə dəlalət edir. Çavuşoğlu 1999-cu ildə Türkiyə və Yunanıstanda zəlzələlər baş verən zaman qarşılıqlı yardımı və o zaman ”münasibətlərimizi inkişaf etdirmək üçün başqa bir zəlzələ gözləmək lazım deyil” dediyini xatırladıb: ”Mən bunu o vaxt adi bir vətəndaş kimi demişəm, amma bu gün Türkiyənin xarici işlər naziri kimi eyni cür düşünürəm. Ümid edirəm ki, dialoqla fikir ayrılıqlarımızın səmimi şəkildə həlli üçün səy göstərəcəyik. Zəlzələdə Yunanıstanla olan həmrəyliyimiz yeni bir səhifə açmağımıza səbəb olacaq”. Dendias da həmçinin ”əlaqələrimizi yaxşılaşdırmaq üçün təbii fəlakətləri gözləmək lazım deyil” deyərək, Yunanıstanın Türkiyəyə yardım səylərinin davam edəcəyini bildirib.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin rəhbəri Samir Hümbətov ”Şərq”ə açıqlamasında bildirib ki, Yunanıstan 1999-cu ildə Türkiyədə baş vermiş zəlzələ zamanı ilk yardım edən ölkələrdən biri olmuşdu. Ekspertin sözlərinə görə, qısa müddət sonra Türkiyə Yunanıstanda olmuş zəlzələdən ziyan görənlərə yardım əlini uzatmışdı. Ancaq bir müddət sonra münasibətlər yenidən kəskinləşmişdi:** ”Türkiyə və Yunanıstan arasında zaman-zaman həm yumşalma olur, həm də gərginlik yaranır. Münasibətlər daim gərgin olmadığı kimi hər zaman normal da olmayıb. Əslində, iki qonşu xalq arasında tarixi münasibətlərin qorunması təbii haldır. Nəzərə alaq ki, Türkiyədə yunan topluluğu, Yunanıstanda isə türklər yaşayır. Tərəflər arasında diplomatik əlaqələrin kəsilməsi mümkün deyil. Son bir ildən artıqdır ki, Afina-Ankara münasibələri gərgin dövrünü yaşayırdı. Qarşılıqlı ittihamlar, hədələr səslənir, heç kim bir-birinə güzəştə getmirdi. Zəlzələdən sonra vəziyyət nisbətən dəyişdi və yeni proses formalaşdı. Bu da iki tərəfdə müsbət qarşılandı”.

**S.Hümbətov vurğulayıb ki, onsuz da Türkiyə rəhbərliyi daim vurğulayırdı ki, Qərb ölkələri Yunanıstanı qızışdırır, rahat buraxmırlar:** ”Həqiqətən də belə idi. Ankara ilə münasibətlərin kəskinləşməsi Yunanıstan hökuməti ilə bağlı məsələ deyil. ABŞ son bir il əzrində Yunanıstanda 9 hərbi baza qurub. Ona görə də Afina özbaşına, müstəqil addım ata bilmir. Qərbin təlimatına uyğun davranmağa məcbur qalır. Yunanıstan özü hazırda iqtisadi baxımdan çox ağır durumdadır. Bu da Qərbdən asılılığı gücləndirir. O baxımdan Afina-Ankara münasibətlərinə Qərb-Türkiyə əlaqələri çərçivəsindən baxmaq lazımdır. İki ölkənin əlaqələrini Qərb-Türkiyə münasibətləri nizamlayacaq. Qərbin maraqları necə formalaşacaqsa, Yunanıstan da onun üzərindən hərəkət edəcək”.

**İsmayıl Qocayev**

# Türkiyə səfiri xahiş etdi

## “Yardımtoplama məntəqələrinə daha geyim göndərməyin”




**Dünən Türkiyənin Azərbaycandakı səfirliyində brifinq keçirilib.**

**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı qardaş ölkədə baş verən zəlzələ ilə bağlı yaşanan hadisələri şərh edib.**

Səfirin sözlərinə görə, Azərbaycan qardaş ölkənin yardım çağırışını gözləmədən Prezident İlham Əliyevin göstərişi ilə hərəkətə keçib: ”Zəlzələnin səhəri günü fövqəladə hallar naziri, hörmətli Kəmaləddin Heydərov mənə zəng vuraraq zəlzələ bölgəsinə göndərilmək üçün axtarış-xilasetmə qrupunun hazır olduğunu bildirdi. Qeyd etdi ki, heyət qısa müddət sonra artıq hava limanına yola düşəcək. Zəlzələ baş verəndən heç 6 saat keçməmiş artıq heyət Türkiyəyə yola düşdü. Eyni gün içərisində ümumilikdə 3 təyyarədə 400-dən çox heyət Türkiyəyə göndərildi”.

**Səfir onu da əlavə edib ki, Azərbaycanda kimin gücü nəyə çatırsa, Türkiyəyə göndərib:** ”Şəkidən Astaraya, Bakıdan Zəngilana kimi ürəklər Türkiyə ilə döyündü”.

O bildirib ki, bu günə qədər Azərbaycandan Türkiyəyə zəlzələ ilə əlaqədar 25 minə yaxın adyal, 441 ton tibbi ləvazimat, 1297 ədəd generator göndərilib.

6240 ədəd qızdırıcı, ümumiyyətlə, 737 ton qida məhsulu göndərilib:

”Xüsusilə Fövqəladə Hallar Nazirliyi və Müdafiə Nazirliyi bütün imkanlarını səfərbər edib və Türkiyənin əmrinə verib. Zəlzələ bölgəsinə ilk çadır və isidicilər Azərbaycandan gətirilmişdi. İndiyə qədər 5624 çadır göndərilib”.

Zəlzələ bölgəsində ailəsini itirmiş uşaqların xaricdə övladlığa verilməsi məsələsinə toxunan səfir belə bir halın mümkün olmadığını deyib. O, eyni zamanda bildirib ki, hazırda zəlzələ yerində Azərbaycanın iki səhra xəstəxanası fəaliyyət göstərir.

”Yaralıların Azərbaycana gətirilərək müalicə etdirilməsi mümkündür. Lakin ötən gün gətirilən uşaqlar ailələri olan yaralılardır. Xaricə övladlığa verilmə dediyim kimi, mümkün deyil”.

**C.Bağçı yardımtoplama məntəqələrinə daha geyim göndərilməməsini xahiş edib.**

Onun sözlərinə görə, həddən artıq çox geyim göndərilib və hazırda paylanılması üzrə işlər görülür: ”Daha çox qış çadırı, adyal, qızdırıcı kimi ləvazimatlar göndərilməsini xahiş edirik. Həmçinin pul vəsaiti üçün hesablar açıqlanıb. Yardımları ora göndərmək olar”.

**Şəymən**

# Avropaya yolumuz açıqdır

## İtaliya ilə əməkdaşlıq Azərbaycana geosiyasi üstünlüklər qazandırır



**“Azərbaycan-İtaliya münasibətlərinin son dövrdə strateji tərəfdaşlıq və dostluq səviyyəsinə yüksəlməsi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir”. Bu barədə ”İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə deyib.**

QHT rəhbəri bildirib ki, bu iki ölkənin münasibətlərinin yüksək tərəfdaşlıq mərhələsinə keçməsi üçün münbit şəraitin formalaşması istiqamətində davamlı fəaliyyət tələb olunurdu. Hər iki ölkənin ümumi maraqlar çərçivəsində əməkdaşlığının inkişaf etdirilməsi üçün uğurlu diplomatik əlaqələrin inkişafı vacib idi: ”İtaliyanın Avropa İttifaqı və NATO-nun üzv dövləti, eyni zamanda Fransa, Avstriya, İsveçrə və Sloveniya kimi dövlətlərlə qonşu olmasını nəzərə alsaq, bu strateji əməkdaşlığı Azərbaycanın yaxın gələcəkdə maraqlarının təminatına dəstək mexanizmi kimi qiymətləndirə bilərik. Həmçinin İtaliyanın Avropa Parlamentində 76 deputatla təmin olunmasına da xüsusi diqqət etməliyik. İtaliya Azərbaycanla strateji tərəfdaşlığını sübut etmək üçün müvafiq addımlar atıb. Vətən müharibəsi dövründə İtaliya Azərbaycanla həmrəylik nümayiş etdirib. İtaliya mediası Azərbaycanla bağlı məsələlərdə obyektiv yanaşması ilə seçilib. Xüsusən, 2020-ci ilin İtaliyada ”Azərbaycan ili” elan olunması Azərbaycana və Prezident İlham Əliyevə göstərilən xüsusi etimadın göstəricisi idi”.

Ekspertə görə, əlaqələrin müsbət dinamika ilə inkişafında Prezident İlham Əliyevin 2022-ci il sentyabrın 1-2- də İtaliyaya işgüzar səfərinin xüsusi rolu olub: ”Siyasi əlaqələrin yüksək səviyyədə qalmasında iqtisadi əməkdaşlığın da mühüm əhəmiyyəti var. Bu baxımdan Azərbaycan-İtaliya iqtisadi əlaqələrinin bünövrəsinin möhkəm qoyulması hər iki dövlətin ümummilli maraqları çərçivəsində davamlı tərəfdaşlığı üçün geniş imkanlar açır. Azərbaycan dövləti dəfələrlə ən ali səviyyədə bəyan edib ki, Vətən müharibəsi dövründə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dövlətlərin Qarabağın quruculuq prosesində iştirakına xüsusi imkan yaradacaq. Azad edilmiş ərazilərdə İtaliya şirkətləri uğurla fəaliyyət göstərirlər. Əlbəttə, əməkdaşlığın mühüm mərhələsi enerji seqmentidir. Cənub Qaz Dəhlizi və bu layihənin hazırda son mərhələsi olan TAP çərçivəsində Azərbaycan qazı İtaliya vasitəsilə Avropaya çatıb. Nəticədə Azərbaycan mühüm bazar, Avropa isə Rusiyadan kənar enerji mənbəyi əldə edib. Azərbaycan əməkdaşlığın yeni mərhələsi kimi İtaliya ilə ”yaşıl kimya”, ”yaşıl enerji”, ”yaşıl enerji zonası”, ”ağıllı şəhər”, ”ağıllı kənd” konsepsiyaları əsasında sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq hər iki ölkənin siyasi və iqtisadi maraqlarını təmin edir. Azərbaycan üçün geosiyasi üstünlüklər qazandırır. Çünki Avropanın enerji təhlükəsizliyində rol almaq Azərbaycanın müstəqil siyasi xəttinin daha da güclənməsinə xidmət edəcək”.

**İsmayıl**

# Vardanyan zorla Qarabağa qaytarıldı

## Bu, Kremlin Azərbaycana qarşı təxribatçı siyasətini davam etdirməsindən xəbər verir



**Erməni əsilli Rusiya vətəndaşı, milyarder Ruben Vardanyan Qarabağdan Moskvaya qaçmışdı. Vardanyanın hansı yollarla Qarabağdan qaçdığı suallar yaratmışdı.**

Rubenin Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının avtomobillərində gizlənərək Qarabağdan qaçdığı bildirilirdi. Moskvada olarkən Ruben Vardanyan israrla Qarabağa qayıtmaq istəmədiyini bildirib. Hətta Vardanyan Qarabağda müxtəlif erməni qruplaşmalar tərəfindən ona qarşı sui-qəsd olunacağı ehtimalının da olduğunu deyib və bundan sonra tapşırıqlara uyğun şəkildə hərəkət edə bilməyəcəyini vurğulayıb. Lakin yalvarışları Vardanyanı xilas edə bilməyib. Ciddi təzyiqlərlə Vardanyan Qarabağdan qaçdığı formada geri qayıtmaq məcburiyyətində qalıb. Vardanyan-Paşinyan münasibətlərinin yeni təfərrüatları da məlum olub. Əvvəllər yaradılan təəssürata görə, Ermənistan Baş naziri Nikol Paşinyan Vardanyanla gərginlik yaşayıb və onlar ayrı cəbhələrdə olub. Əslində isə bunlar görüntü xatirinə edilib, Vardanyanla Paşinyan birgə hərəkət edirlər. Bütün bu şou isə Ermənistanın Qərbə yaxınlaşdığı, Paşinyanın Rusiyaya qarşı olduğu və Vardanyanla müxalif olması görüntüsünü yaratmaq üçün olub. Bəzi Qərb dairələri də sözügedən şoudan xəbərdar imiş. Ekspertlərə görə, Vardanyanın zorla Qarabağa qaytarılması gələcək perspektivdə bölgədə vəziyyətin gərginləşməsinə səbəb olacaq. Bundan sonra bölgədə Rusiya tərəfindən verilən hansı tapşırıqların icra olunacağı, hansı yeni təxribatların olacağı zamanla məlum olacaq.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, erməni separatçılarının ”dövlət naziri” Ruben Vardanyanın Moskvaya çağırılması və məsləhətləşmələrdən sonra onun eyni yolla geri qaytarılması Kremlin Azərbaycana qarşı təxribatçı siyasətini davam etdirməsindən xəbər verir.** Analitikin fikrincə, Moskva Vardanyandan Azərbaycana qarşı istifadə etmək istəyindən əl çəkməyib: ”Rusiyalı rəsmilər Azərbaycanla ”strateji tərəfdaşlıqdan” ağızdolusu danışsalar da, erməni separatizminə dəstək vasitəsilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizliklərini nümayiş etdirirlər. Bu suallar açıq qalır. Ruben Vardanyanı hansı məqsədlə Moskvaya çağırmışdılar? Onunla Moskvada kim görüşüb və hansı məsələləri müzakirə edib? Moskvanın Ruben Vardanyanı yenidən Qarabağa göndərməkdə məqsədi nədir? Erməni separatçılarının müxtəlif nümayəndələri keçmiş illərdə də Moskvaya səfərlər edir və bu səfərlərin məqsədi Azərbaycana izah edilmirdi. Rusiyalı rəsmilər və diplomatlar heç zaman suallara aydınlıq gətirmədilər. Ruben Vardanyanın Qarabağa qaytarılması xəbərinin yayılmasıyla eyni gündə Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev Bakıya gəlib və rəsmi görüşlər keçirib. Rusiya erməni separatçılarını idarə edirsə, nəqliyyat vasitələri ilə onları Laçın yolundan keçirirsə, Xovayevin ”sülh” barədə fikirlərinin əhəmiyyəti olmayacaq. Rusiyaya sülh deyil, bölgə ölkələrinə nəzarət lazımdır ki, biz buna heç zaman razılaşa bilmərik”.

**İsmayıl**

# Enerji əməkdaşlığı daha da güclənəcək

## Zəlzələdən sonra Azərbaycan Türkiyə arasındakı ticarət dövriyyəsində hər hansı ciddi azalma gözlənilmir



**“Türkiyədəki zəlzələnin iqtisadi nəticələri ilə yanaşı, qonşu ölkələrlə, xüsusən Azərbaycanla ticari dövriyyəsinə təsirləri də müzakirə olunur”. Bu barədə millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Türkiyə Azərbaycanın strateji müttəfiqi olmaqla yanaşı, xarici ticarətdə ikinci ən böyük tərəfdaşıdır:**

”2022-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 6 milyard dollara yaxınlaşıb. 2021-ci ildə ölkələr arasındakı ticarət dövriyyəsi 4 milyard 661 milyon dollar olub. Ötən ilin ilk 11 ayında Türkiyəyə 3 milyard 323 milyon dollarlıq ixrac etmişik. Qardaş ölkədən isə 1 milyard 48 milyon dollarlıq idxalımız olub. Türkiyə eyni zamanda ölkəmizin qeyri-neft ixracatında ikinci əsas tərəfdaşıdır. 3 milyard dollarlıq enerjidən kənar ixracatımızın təxminən 1/3-i Türkiyənin payına düşür. Son illər qardaş ölkəyə ixrac etdiyimiz qeyri-neft məhsullarının dəyərində artım qeydə alınır. Bununla yanaşı, hələ də Türkiyə ilə ticarət dövriyyəmizdə enerji məhsulları əsas paya malik olmaqdadır. Xüsusən də qardaş ölkəyə mavi qaz ixracatında artımlar qeydə alınır”.

**Parlament üzvü vurğulayıb ki, ”Əsrin fəlakəti”nin coğrafiyasına və Türkiyəyə ixracatımızn strukturuna diqqət yetirsək, zəlzələ iki ölkə arasındakı iqtisadi əlaqələrə xüsusi neqativ təsir göstərməyəcək:** ”2023-cü ildə də ölkələr arasındakı enerji əməkdaşlığının güclənəcəyi gözlənilir. Qeyri-neft sahəsindəki əməkdaşlıq da bu il davam etdiriləcək. Bu baxımdan, enerji məhsullarının qiymətlərində düşüşlər olmazsa, Azərbaycanla Türkiyə arasındakı ticarət dövriyyəsində hər hansı ciddi azalma gözlənilmir”.

**İsmayıl**



# Türkiyə-Ermənistan sərhədinin açılması müvəqqətidir

## Bundan sonrakı proseslər İrəvanın Azərbaycana qarşı münasibətindən asılı olacaq

**Türkiyə-Ermənistan sərhədi 35 il sonra açılıb. Bu, Ermənistanın Türkiyəyə humanitar yardım göndərməsi sayəsində baş verib. Ermənistandan gələn humanitar yük dolu 5 TIR 35 ildir bağlı qalan Alican sərhəd qapısından keçib.**

Qeyd edək ki, sözügedən sərhəd qapısı sonuncu dəfə 1988-ci ildə istifadə olunub. Həmin il Ermənistanda baş verən zəlzələ zamanı Türk Kızılay tərəfindən yığılan yardımlar fəlakət bölgəsinə aparılmışdı. Sərhəd keçid məntəqəsi Ermənistanın Qarabağı işğal etməsinə etiraz olaraq 1993-cü ildə Türkiyə tərəfindən bağlanıb. Keçid məntəqəsinin açılması Türkiyə və Ermənistan xüsusi nümayəndələri arasında görüşlərdə müzakirə mövzusu olub. Türkiyənin Ermənistanla münasibətlərin normallaşması üzrə xüsusi nümayəndəsi Serdar Kılıç tvitter hesabında iki ölkəni ayıran Araz çayının Türkiyə tərəfindəki Alican keçid məntəqəsindən keçən yük maşınlarının fotolarını paylaşıb: "Mən Türkiyənin zəlzələ bölgəsində xalqımızın əzablarını yüngülləşdirmək üçün Ermənistan xalqının göndərdiyi səxavətli yardımı həmişə xatırlayacağam". Kılıç Ermənistan rəsmilərinə təşəkkürünü bildirib. Bəzi siyasi şərhçilər sərhəd keçid məntəqəsinin açılmasını Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasında ciddi addım kimi dəyərləndirsələr də, əksəriyyət bunun müvəqqəti xarakter daşıdığını düşünür. Hesab edilir ki, İrəvan-Ankara münasibətlərinin inkişafı sadəcə bu iki ölkə ilə bağlı məsələ deyil. Əlaqələrin irəliyə doğru getməsi paralel olaraq Bakı-İrəvan arasındakı danışıqlardan və sülh müqaviləsindən asılıdır.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan da "Şərq"ə açıqlamasında deyib ki, Türkiyə-Ermənistan sərhədinin açıq qalması İrəvanın Azərbaycana qarşı olan münasibətindən asılıdır. Partiya rəsmisinin sözlərinə görə, burada Azərbaycanla sülh müqaviləsi və müəyyən anlaşmaların olması əsas şərtdir:** "Müvəqqəti atılan addımlar sərhəd məntəqələrinin daimi açılması anlamına gəlmir. Ümumən, son dönəmdə münasibətlərdə yaxınlaşma müşahidə olunur. Bu, yaxşı haldır. Ermənistan üçün bu keçid məntəqəsi nəfəslik rolu oynaya bilər. Hərçənd, Paşinyan hökuməti əvvəlkilərə nisbətdə bu münasibətlərin normallaşmasında maraqlıdır. Çünki Türkiyə ilə münasibətlərin normallaşması Paşinyan hökumətinin ömrünü də uzada bilər. Lakin hesab edirəm ki, Ermənistan qüvvələri Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və Şuşanın kəndlərindən tamamilə təmizlənməsə, ermənilərə heç bir güzəşt ola bilməz. Ermənistanın Türkiyəyə göndərdikləri xilasedici adı altındakı kəşfiyyat agenturası hazırda Adıyamanda oğurluq və qarət üstündə həbs olunub. Yəni erməni xisləti elədir ki, əsla onlara tam güzəşt və etibar ola bilməz. Erməni əhalisinin çoxu Türkiyədəki zəlzələyə sevinir. Bu baxımdan Türkiyə Ermənistanla sərhəd keçid məntəqəsini belə rahatlıqla açmağa tələsməməlidir".

**İsmayıl Qocayev**

# Yeni dövr başlayır

## Türkiyə-İsrail münasibətləri daha müsbət məcraya doğru gedir

**İsrailin xarici işlər naziri Eli Kohen Türkiyəyə gedib. Bu barədə XİN başçısı tvitterdə bildirib. "Mən Türkiyəyə türk xalqı ilə həmrəy olduğumu bildirmək üçün gəlmişəm.**

Prezident Rəcəb Tayyib Ərdoğan və xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşəcəyəm və Türkiyənin başına gələn ağır fəlakətə görə İsrail xalqının başsağlığını çatdıracam. İsrail bu çətin zamanda Türkiyənin yanındadır və heyətimizin fəaliyyəti və humanitar fəaliyyətimizlə ona kömək etməyə davam edəcək", - deyə o, qeyd edib.



### İran isə bu prosesdə özünü "ofsayd"a saldı

**Türkiyə-İsrail münasibətlərinin qızıl dövrünün yaşandığını deyən siyasi şərhçi Rusif Məmmədsoy "Şərq"ə bildirib ki, münasibətlərin bu səviyyəyə gəlməsində Azərbaycan tərəfinin xüsusi rolu olub:** "Azərbaycanla İsrail arasındakı əməkdaşlıq yüksək səviyyədə olsa da, Türkiyə üçün bunu demək mümkün deyildi. Yaxın vaxtlara qədər rəsmi Ankara və Təl-Əviv arasındakı münasibətlər gərgin müstəvidə davam edirdi. Lakin bu gün Azərbaycanın da səyləri nəticəsində bu münasibətlər daha müsbət məcraya doğru gedir. Digər tərəfdən, hər iki ölkə regionda bir-birilə əməkdaşlıq etməkdə maraqlıdır. Ümumiyyətlə, münasibətlərin pisləşməsi heç bir dövlətin maraqlarına xidmət etmirdi. Sadəcə olaraq bəzi fikir ayrılıqları vəziyyəti gərginləşdirirdi. Bu gün isə Türkiyə-İsrail münasibətlərinin qızıl dövrünü yaşayırıq".

*Analitikin sözlərinə görə, bu yaxınlaşmada İran amili də diqqətə alınmalıdır:* *"Azərbaycan və Türkiyə İranla dil tapmağa çalışsa da, rəsmi Tehran bizim mövqeyimizə qarşı tamamilə zidd addımlar ataraq düşmənlərimizlə əməkdaşlıq edir.* İsrailin də bu tandemin içərisində yer alması bizim üçün arzuolunandır. Bizi sionistlə əməkdaşlıqda ittiham edən Cənub qonşumuz, "şeytanla" dostluqdan belə çəkinmir. Hətta xəbərlər yayıldı ki, rəsmi Tehran Türkiyənin indiki vəziyyətindən yararlanaraq Azərbaycana qarşı təxribat törətmək niyyətindədir. Bir tərəfdə bizim "müsəlman qardaşımızın" əməlləri, digər tərəfdə isə hər zaman Türkiyə və Azərbaycanın yanında olan İsrailin mövqeyi. Yəni rəsmi Təl-Əviv humanitar və siyasi dəstəyini əsirgəməyəcəyini hər zaman bildirib".

**Nihat Müzəffər**

# Ermənistan sülhə məcbur edilməlidir

## Bakının əsas gözləntisi Kremlə aydındır

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

*Görüşün əhəmiyyətini "Şərq"ə dəyərləndirən politoloq Tofiq Abbasov söyləyib ki, Rusiya-Azərbaycan münasibətlərində stabil vəziyyət hökm sürür:* "Biz artıq biri-birimizi kifayət qədər sınamış qonşularıq. Münasibətlərimizdə isə narazılıq doğuran amillər yoxdur. Digər tərəfdən bizim çoxsaylı ortaq layihələrimiz var. Bu kontekstdə isə vaxtaşırı danışıqların və məsləhətləşmələrin keçirilməsi vacibdir. İndiki şərait çox mürəkkəbdir. Çünki dünyada böhranlı vəziyyət yaşanır. Həmçinin Ukrayna ilə Rusiya arasındakı gərginlik və müharibə şəraiti var. Bu qarşıdurma Avrasiya məkanında ağır vəziyyət yaradır. Bu təqdirdə isə Rusiya ağır vəziyyətdən çıxmaq üçün alternativ axtarır. Bu danışıqlarda əlavə imkanların proseslərə cəlb olunması məsələsinin müzakirə olunacağı da gözləniləndir. Bu səviyyədə aparılan danışıqlar hər zaman pozitiv rol oynayır. Ümumiyyətlə, Moskva və Bakı arasındakı dialoq biri-birinə etimad göstərməyin sübutudur. Düzdür, bu dostluq siyasətində də anlaşılmayan məqamlar olur. Lakin belə olsa da, hər iki tərəfin niyyəti anlaşmazlığı aradan qaldırmaqdır".



"Moskva və Bakı arasındakı dialoq biri-birinə etimad göstərməyin sübutudur"

*T.Abbasov əlavə edib ki, Azərbaycanla Ermənistan arasındakı problemlərin həlli də bu görüşdə mütləq müzakirə edilib:* "Rusiya prosesdə yaxından iştirak edir və əsas moderatordur. Düzdür, Fransa, Aİ və Qərb Kremli prosesdə ağır duruma salmağa çalışır. Ancaq bu, mümkünsüzdür. Çünki Rusiya bilavasitə Qafqaz dövlətidir. Yəni bu bölgədə Moskvanın hüquqi mövcudluğu var. Rusiyaya burada müharibə şəraitinin olmaması və qarşıdurmanın səngiməsi lazımdır. Düzdür, Ermənistan əks istiqamətdə çalışır. Azərbaycan isə bu məqamı Rusiyanın rəsmilərinin diqqətinə çatdırır. Rəsmi Bakının Moskvadan gözləntisi, Rusiyanın Ermənistana daha çox təzyiq göstərməsi və onları sülh müqaviləsinin imzalanmasına sövq etməsidir".

**Nihat Müzəffər**

# Bu gündən marketlərdə polietilen torbalar ödənişli olacaq

## Kompleks tədbirlər görülmədən ancaq torbaları pullu etməklə məqsədə nail olmaq mümkün olmayacaq

**Bu gündən marketlərdə alıcılara verilən polietilen torbalar ödənişli olacaq.**

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Ticarət Şəbəkələrinin İnkişafı" İctimai Birliyinə məktub ünvanlanıb.**



Məktubda qeyd olunub ki, ekoloji problemlərin həllinə yönəldilmiş tədbirlərin səmərəliliyini artırmaq, operativ həll olunmasını təmin etmək, o cümlədən, ətraf mühitin sağlamlaşdırılması məqsədilə 15 fevral 2023-cü il tarixindən etibarən, polietilen torbalar müştərilərə ödənişli qaydada təqdim ediləcəkdir".

Qeyd edək ki, İrlandiya, Niderland, Çexiya kimi ölkələrdə polietilen paketlər pulla satılır. Məsələn, Niderlandda belə torbaların qiyməti 0.25 avrosentdir (40 qəpik). Britaniyada torbaların qiyməti 5 pens (10 qəpik) olandan üç il sonra onlardan istifadə iki dəfə azalıb.

**İqtisadçı-ekspert Natiq Cəfərli isə "Şərq"ə açıqlamasında deyib ki, ekoloji tarazlığı qorumaq üçün bir çox ölkələrdə bu cür təşəbbüslər həyata keçirilir. Amma onlarda marketlərdə alternativ olaraq parçadan torbalar, çantalar təklif olunur, təşviq olunur, alıcılar maarifləndirilir və bu, öz nəticəsini verir:** "Azərbaycanda isə bu yoxdur. Belə kompleks tədbirlər görülmədən ancaq torbaları pullu etməklə məqsədə nail olmaq mümkün olmayacaq".

Selofan torbaların qiymətinin dövlət tərəfindən təyin olunma mexanizmi olmadığını vurğulayan ekspert marketlərdə bu torbaların 5-10 qəpik civarında satılacağını qeyd edib. N.Cəfərli hesab edir ki, məbləğ bir o qədər böyük olmadığı üçün bu yolla insanların polietlen torbalardan istifadəsini azaltmaq real görünmür. 5 qəpiyə görə heç kəs marketə cibində torbayla gəlməyəcək. Təşviq addımları atılmalıdır ki, insanların buna münasibəti dəyişsin: "Amma sözügedən qərarla bağlı niyyət bəllidir. Uzun müddətdir dünyada ekologiya ilə bağlı polietilen torbalardan imtina edilir. Qonşu ölkələrdə bəzi hallarda polietilen torbalar qadağan edilib, bəzi hallarda isə pul ilə satılır. Yəni polietilen torbaları pul ilə satmaqda məqsəd qazanc əldə etmək deyil. Pulla satılan zaman bu torbalara tələbatın azalacağına ümid edilir. Ancaq burada zamana ehtiyac var ki, insanların davranış qaydası dəyişsin. Ona görə də Azərbaycan bu torbaların ödənişli satışına keçməzdən əvvəl bu istiqamətdə təşviq addımları atılmalı, maarifləndirmə işləri aparılmalı idi. 10 illərlə insanlarda formalaşmış bir ənənəni bir günün içində dəyişdirmək mümkün deyil".

İqtisadçı deyib ki, istehlakçıları parça torbalardan istifadəyə öyrəşdirmək, izahedici videoçarxlar hazırlamaq lazım idi".

**Şəymən**

# Müharibə uzun illər çəkə bilər

## Qərb Rusiyanı öz silahı ilə vurmağa çalışdı

**NATO-nun baş katibi Yens Stoltenberq Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya qarşı yeni hücum əməliyyatlarına hazırlaşdığını bildirib.**

**Stoltenberq bu barədə Alyansın müdafiə nazirlərinin fevralın 14-15-də Brüsseldə keçiriləcək ikigünlük iclası ərəfəsində keçirdiyi brifinqdə məlumat verib.**




"Biz Ukraynaya dəstəyimizi gücləndirir və gücləndirəcəyik. Rusiyanın 24 fevral 2022-ci ildə Ukraynaya genişmiqyaslı hücumundan təxminən bir il keçir. Ancaq Prezident Putin sülhə deyil, yeni hücumlara hazırlaşır. Biz Ukraynanı qazanmaq, ədalətli və davamlı sülhə nail olmaq üçün lazım olan addımları atmağa davam etməliyik", - Stoltenberq vurğulayıb.

**Rusiyanın işğalçılıq siyasətini davam etdirdiyini deyən BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli "Şərq"ə bildirib ki, hadisələr rəsmi Moskvanın istədiyi kimi cərəyan etmir:**

"Çünki Rusiya Ukrayna ordusu tərəfindən belə bir müqavimətlə üzləşəcəyini və Qərbin bu qədər dəstək verəcəyini gözləmirdi. Ona görə də pis vəziyyətə düşdü. Rusların Ukraynanın təxminən 20 faizini işğal etməsinə rəğmən onlar sonrakı əməliyyatlarda böyük problemlə qarşılaşırlar. Çünki Qərb rəsmi Kiyevə ciddi yardımlar edir və müharibə uzanır. Təxminən iki aydır ki, Rusiya ordusunda durğunluq var idi.

Bu isə gücünü toplamaq və yenidən genişmiqyaslı hücumlara başlamaq üçün bir taktikadır. Yəni Stoltenberqin sözləri həqiqətdir. Rusiya yaxın zamanlarda yeni hücum əməliyyatları həyata keçirərək Ukraynanı sülh danışıqlarına məcbur etməyə çalışacaq. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, rəsmi Kiyev bu məsələni tək həll edə bilməyəcək. Çünki onun arxasında böyük güclər dayanıb və bu güclərin istəkləri nəzərə alınmalıdır. Ukrayna da bunu yaxşı başa düşür. Dünya siyasətinin qaydaları bunu tələb edir".

*Professorun sözlərinə görə, Qərb Ukraynaya daha ciddi yardımlar göstərməyə davam edəcək:*

"Qərbin və beynəlxalq təşkilatların düşüncə tərzlərini təhlil edəndə onların hərbi əməliyyatların normadan artıq intensivləşməsini istəmədiklərinin şahidi oluruq. Çünki bu, Rusiya tərəfindən böyük təhlükə kimi qəbul olunaraq, nüvə silahından istifadəni gündəmə gətirə bilərdi. İlk günlərdən başlayaraq Qərb Rusiyanı öz silahı ilə vurmağa çalışdı. Yəni hibrid müharibədən istifadə edir.

Ümumiyyətlə, hibrid müharibəni ilk dəfə Rusiya 2014-cü ildə Ukraynaya qarşı istifadə etmişdi. Qərb ölkələri ciddi qarşıdurmaya səbəb olmamaq üçün yardımları mərhələli şəkildə edir. Hətta onlar ilk vaxtlarda Ukraynaya hava hücumundan müdafiə qurğularını verməyi belə gecikdirirdilər. Belə olduğu təqdirdə Rusiyanın Qərbə qarşı açıq şəkildə çıxış etmək imkanı olmur.

Bununla onlar Kremlin nəbzini əllərində saxlamağa çalışırlar. Hamı yaxşı başa düşür ki, hadisələr Rusiyanı çökdürməyə hesablanıb. Moskvanın insan resurslarına güvənməsinə baxmayaraq, belə davam edərsə, müharibə uzun illər çəkə bilər".

**Nihat Müzəffər**

# İnformasiya kənara sızmamalıdır

## Dövlət qurumları üçün yeni platforma tətbiq olunur

**İnformasiya sızmasının qarşısının alınması məqsədilə yeni proqram təminatı istifadəyə verilib.Dövlət qurumlarında informasiya təhlükəsizliyinin gücləndirilməsi və informasiya sızmasına səbəb ola bilən yerli və xarici disk daşıyıcılarından asılılığı aradan qaldırmaq üçün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) yeni**



"share.gov.az" platformasını istifadəyə verib. XRİTDX-dən "Şərq"ə verilən məlumata görə, platforma, "wetransfer", "dropbox", "boxca" və bu kimi platformalara etibarlı alternativdir:"Platforma istifadəçilərə, həm qarşı tərəflə bölüşülməsi istənilən faylların müvəqqəti saxlanc sistemində 5 dəqiqədən 15 gün intervalınadək saxlama, həm də istifadəçi şifrəsi ilə simmetrik şifrləmə imkanını verir. Bu da təhlükəsizliyin təmin olunması və məlumatların kənar müdaxilələrdən qorunması baxımından çox əhəmiyyətlidir.Yalnız "AzStateNet" şəbəkəsinə qoşulmuş dövlət qurumları sözügedən platformaya fayl yükləmə imkanına malikdir. İstənilən şəbəkə istifadəçisi əldə etdiyi keçid (link) vasitəsilə (şifrələndiyi halda, şifrə vasitəsilə) yüklənmiş faylları endirə bilər. Platformadan istifadə zamanı istifadəçilərin maarifləndirilməsi məqsədilə interfeysə avtomatik yenilənən informasiya təhlükəsizliyi tövsiyələri - "Kibertövsiyə" bölməsi əlavə olunub.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarının əməkdaşlarına informasiya sızmasına səbəb ola biləcək kənar xidmətlərdən istifadə etməməyi və məlumat bölüşməsi üçün yalnız "share.gov.az" platformasını tətbiq etməyi tövsiyə edir.

**Şəymən**

# Erməni kilsəsi hər zaman işğalın başında dayanıb

## Məqsəd Paşinyan hökumətinin siyasətinə təzyiq göstərməkdir, bunun təlimatı da Moskvadan gəlir

**Erməni katolikos II Qaregin "Hraparak" qəzetinə müsahibəsində Paşinyan hökumətini tənqid edib və kilsə ilə hakimiyyət arasında fikir ayrılıqlarının olduğunu vurğulayıb. II Qaregin qeyd edib ki, ölkədəki vəziyyət onu Ermənistanın və Qarabağdakı separatçıların keçmiş "rəhbərləri" ilə görüşlər təşkil etməyə vadar edib: "**



Biz onlarla təmasları davam etdiririk və birlik naminə bütün səylərimizi göstəririk. Ölkə hakimiyyətinin Qarabağı Azərbaycanın ərazisi kimi tanımaq qərarına gəlincə, kilsənin Qarabağ ermənilərinin statusu ilə bağlı öz mövqeyini dəfələrlə ifadə edilib. Biz Qarabağ ermənilərinin azad və müstəqil həyatı naminə xalqların öz müqəddəratını təyin etmək kimi fundamental hüququnun həyata keçirilməsinə nail olmalıyıq". Kilsə rəhbəri bəyan edib ki, müharibədən sonra hökumət və hakimiyyət nümayəndələri ilə görüşlərimiz müxtəlif tədbirlər çərçivəsində protokol xarakterli idi: "Məsələn, prezidentin andiçmə mərasimi kimi. Gizlətməyəcəm, kilsə ilə hakimiyyət arasında fikir ayrılıqları var. Kilsə çalışır ki, ölkənin inkişafı və təhlükəsizliyinə, dövlətçiliyin möhkəmlənməsinə töhfəsini versin. Kilsənin milli və sosial məsələlərlə bağlı bəyanatlarını və mövqeyini dərk etmək lazımdır".

**"Revanşistlərin və separatçıların kilsənin təhriki ilə yenidən fəallaşmasına imkan verməməliyik"**

Qeyd edək ki, kilsə ilə Paşinyan hökuməti arasında fikir ayrılıqları Nikolun hakimiyyətə gəlməsindən dərhal sonra başlayıb. 44 günlük müharibədən sonra isə kilsənin baş nazirin və onun bütün komandasının istefasını tələb etməsi ilə qarşıdurma daha da şiddətlənib. Ruhanilər vaxtaşırı müxalifət hərəkatlarında iştirak edirlər. Katolikosun özü yalnız iştirakının vacib olduğu tədbirlərə baş çəkir. Hətta Yerablur hərbi panteonuna hakimiyyət və ruhanilər ayrı-ayrılıqda gedirlər.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, erməni kilsəsi hər zaman işğalın başında dayanıb. Ekspert deyib ki, Birinci və İkinci Qarabağ müharibəsi vaxtı təcavüz siyasətində erməni kilsəsi və hökuməti eyni mövqedə olublar:** "Erməni kilsəsi bütün dövrlərdə işğala haqq qazandırıb, müdafiə edib, açıq dəstək verib. İndi də "Qarabağ ermənilərinin azadlığı" sərsəmləməsi ilə revanşistlərə, separatçılara arxa çıxmaqla Paşinyan hökumətinə qarşı çıxırlar. Məqsəd Paşinyan hökumətinin siyasətinə təzyiq göstərməkdir. Bunun təlimatı da Moskvadan gəlir. İkinci Qareginin Kremllə yaxşı münasibətdə olduğu sirr deyil. Rusiya da məhz erməni kilsəsi vasitəsilə baş nazirə problem yaratmağa çalışır. Moskva erməni kilsəsinin gücünə, əhali üzərində təsir imkanlarına bələddir. Ümumiyyətlə, Ermənistanda hakimiyyət daxilində ciddi qarşıdurma yaşanır, müxalifət və erməni kilsəsi də qarşıdurmanın miqyasını genişləndirir. Ermənistan ordusunun önəmli hissəsi Rusiyanın nəzarətindədir. Yəni hazırda Ermənistanda mərkəzdənqaçma prosesi gedir. Çalışmalıyıq ki, bu vəziyyətdən xeyrimizə istifadə edək. Ən əsası Xankəndi və ətrafında erməni silahlılarının tam təmizlənməsinə nail olmalıyıq. Revanşistlərin və separatçıların kilsənin təhriki ilə yenidən fəallaşmasına imkan verməməliyik".

**İsmayıl Qocayev**

**Paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində müxtəlif taksi şirkətlərinin sürücüləri tərəfindən 9 hüquqpozma faktı aşkar olunub.**

**Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib .**





Məlumata görə, onlardan 1-i dələduzluq cinayəti, 8 fakt isə qadın sərnişinlərə qarşı qeyri-etik təkliflərlə bağlı olub. Texniki vasitələrlə aşkarlanan hüquqpozma halları ilə bağlı 8 sürücü inzibati məsuliyyətə, 1 sürücü isə cinayət məsuliyyətinə cəlb edilib. Bu istiqamətdə polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir, daxil olan bütün müraciətlərə çevik reaksiya verilir.

# Ekspertdən maraqlı təklif

## Taksi sürücüləri sərnişinlərin nömrəsini görməsə yaxşıdır

Sosial şəbəkələrdə gedən müzakirələrə görə, taksi sürücülərindən qeyri-etik təkliflər alan xanımların sayı xeyli çoxdur, sadəcə əksəriyyəti şikayətçi olmur.

***"Qadınlara qarşı qeyri-etik hərəkət edən sürücülər ən sərt şəkildə cəzalanmalıdır"***

**Hüquqşünas Ərşad Hüseynovun sözlərinə görə, ölkə qanunvericiliyində sərnişinlərə qarşı qeyri-etik təkliflər edən sürücülər barəsində lazımi qaydalar mövcuddur, sadəcə bu, təcrübədə tətbiq olunmayıb. Ekspertin sözlərinə görə, taksi sürücüsü kimi fəaliyyət göstərmək istəyənlər üçün vacib tələblərdən biri hazırlıq kurslarından keçmək olmalıdır:** "Kursda sürücülərə sərnişinlərlə etik davranış qaydası, sərnişindaşımanın təhlükəsizliyi və sair məsələlər öyrədilir. O zaman sürücünün məsuliyyət hissi olur, insanlarla davranış vərdişi formalaşır. Kursu bitirəndən sonra onlara taksi sürücüsü kimi fəaliyyət göstərmələri üçün fərqlənmə nişanı verilməlidir. Əgər bu olsa, indi danışdığımız və danışmadığımız bir çox məsələlər həllini tapar. Ən azından hər maşını olan sürücü taksi xidməti göstərən şirkətlərə qoşulub sərnişindaşıma ilə məşğul olmaz".

Taksi sürücülərinin sərnişinlərə, xüsusən də qadınlara qarşı qeyri-etik davranışları, əxlaqsız təkliflərinin qanunvericiliklə yanaşı, etik davranış qaydalarına, milli mentalitetimizə zidd olduğunu vurğulayan hüquqşünas hesab edir ki, belə sürücülərin varlığı taksi fəaliyyəti ilə məşğul olan minlərlə insanın işinə kölgə salır. Ona görə də dövlət nəzarəti olmalı və bu işdə təşkilati məsələlər yoluna qoyulmalıdır: "Belə halların əksəriyyəti sərnişin nömrələrinin sürücülər tərəfindən görülməsi və qeyd edilməsi ilə əlaqədardır. Sistem elə təkmilləşdirilməlidir ki, taksi aqreqatoru ilə əlaqədə olan nömrəni sürücü görməsin. Qadın sərnişinlər də taksi sürücüsü "nömrəmi gördü" deyə narahatlıq keçirməsin. Nəzəri cəhətdən bu mümkündür. Buna qədər isə nömrədən etikadan kənar istifadə edən, eyni zamanda xidmət zamanı qadınlara qarşı qeyri-etik davranışlar göstərən sürücülər cəzasız qalmamalıdır. Sürücü bilsə ki, sərt cəzalanacaq, qeyri-etik hərəkətləri etməyəcək. Odur ki, bu cür sürücülərin taksi fəaliyyətinə dərhal xitam verilməlidir. Amma indiki halda bizdə belə bir cəza tədbiri görülmədiyi üçün taksi xidməti göstərən sürücülərin özbaşınalığı davam edir".

**Şəymən**

# Göz görə-görə vətəndaşlarımızı qəzalı binalarda yaşada bilmərik

## Tural Abbaslı: "Yeni binaların texniki baxışı mütləq olmalıdır, boşluqlar dərhal aradan qaldırılmalıdır"



**Türkiyədəki minlərlə insanın həyatına son verən, on minlərlə şəxsin yaralanmasına səbəb olan dəhşətli zəlzələ fəlakətindən sonra ölkəmizdə də binaların, çoxmərtəbəli tikililərin fundamenti, təməli, ümumi durumu ilə bağlı geniş müzakirələr açılıb. Açıq-aşkar görünən odur ki, qardaş ölkədəki dağıdıcı zəlzələ Azərbaycan ictimaiyyətində dərin kədər hissi ilə yanaşı, həm də ciddi narahatlıq doğurub.**

Xüsusən, paytaxt Bakıda və digər iri şəhərlərdə, çoxmərtəbəli binaların sakinləri illərdir yaşadıqları tikililərin neçə bal zəlzələyə davam gətirəcəyini araşdırmağa başlayıblar. Hətta sosial şəbəkədə insanlara çağırış edilib ki, hər kəs yaşadığı binanın zəlzələyə və qəzalara nə dərəcədə davamlı olması ilə maraqlansın, yoxlamalar üçün müvafiq qurumlara müraciət etsinlər. Təşvişə səbəb olan məsələlərdən biri də hündür binaların birinci mərtəbələrində müşahidə olunan qanunsuz və təhlükəli müdaxilələrdir. Ötən gün hərbi ekspert, ehtiyatda olan mayor Ədalət Verdiyev şəxsi təşəbbüsü ilə bir qanunsuzluğu üzə çıxarıb. Ekspert yaşadığı binanın zirzəmisində yerləşən obyektdə fundamentin və daşıyıcı divarların söküldüyünə dair ciddi şübhələri olduğuna dair FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə müraciət edib. Bildirdiyinə görə, cəmi 1 saat sonra adıçəkilən qurumun əməkdaşları yaşadığı ünvana gəliblər: "Mənim iştirakımla zirzəmidəki obyektə dərindən baxış keçirdilər. Şübhələrim özünü tamamilə doğrultdu. Hazırda sənədləşmə işləri davam edir. Əziyyəti keçənlərə dərin təşəkkür edirəm".

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə bildirib ki, bu məsələ çox ciddidir. Partiya rəhbərinin sözlərinə görə, qonşu ölkələrdə zəlzələnin olub-olmamasından asılı olmadan tikinti işlərində qanuni standartlara böyük önəm verilməlidir:** "Şəhərlərin yerləşdiyi coğrafiyaya, ərazinin relyefinə və geoloji şəraitə uyğun çoxmərtəbəli binaların tikintisi ilə bağlı beynəlxalq standartlar mövcuddur. Yəni bir var ki, hansısa bina tikilərkən inşaat prosesinin qanunauyğun olmasına nəzarət edəsən, bir də var ki, artıq tikilmiş, istifadəyə verilmiş, minlərlə insanın yaşadığı yüzlərlə binanı yoxlayasan. Niyə indiyə qədər binalar büdcədən maliyyələşən müvafiq qurumların yoxlamasından keçməyib? Müşahidə etdiyimiz odur ki, bəzi qurumlar binaların tikintisinin texniki şərtlərə uyğun olub-olmaması ilə maraqlanmırlar, rüşvət alıb göz yumurlar. Əgər Bakıda minlərlə bina qəzalı vəziyyətdədirsə, necə olacaq, hansı tədbirləri görəcəklər? İnsanların təhlükəsizliyi necə təmin olunacaq və kompensasiyanı kim ödəyəcək? Ən əsası da qəzalı tikililər necə gücləndiriləcək? Bunlar çox böyük problemdir və məsuliyyət vətəndaşların üzərinə qoyulmamalıdır. Təşəbbüs dövlətdən gəlməlidir və tikinti şirkətləri məsuliyyətə cəlb olunmalıdır. Hamısından geniş arayış tələb edilməlidir. Yoxlamalar zamanı da nəhəng tikinti şirkətlərinə rəhbərlik edən şəxslərin və böyük vəsaitlərin xaricə çıxışına məhdudiyyət qoyulmalıdır. Allah göstərməsin, Bakıda güclü zəlzələ olsa, aqibətimizi təsəvvür belə etmək istəmirəm. Türkiyə kimi böyük bir dövlət zəlzələdən dolayı siyasi, iqtisadi-sosial baxımdan bu qədər sarsılırsa, görün Azərbaycanın durumu necə olar?! Qonşularımız da İran, Rusiya və Ermənistandır. Ona görə də yeni binaların texniki baxışı mütləq olmalıdır. Boşluqlar dərhal aradan qaldırılmalıdır".

***"Allah göstərməsin, Bakıda güclü zəlzələ olsa, aqibətimizi təsəvvür belə etmək istəmirəm"***

**T.Abbaslı vurğulayıb ki, alt mərtəbələrdə daşıyıcı sütunların sökülməsinə qətiyyən imkan vermək olmaz:** "Bunu edənlər və göz yuman qurumlar ciddi şəkildə cəzalandırılmalıdır. Əgər yaşayış üçün təhlükəli çoxmərtəbəli binalar varsa, tezliklə boşaldılmalı və insanların ziyanı həmin şirkət tərəfindən ödənməlidir. Göz görə-görə vətəndaşlarımızı qəzalı, təhlükəli binalarda yaşada bilmərik. Məsələyə və problemə yanaşmamız kompleks olmalıdır. Hökumət Bakı şəhərində binaların zəlzələyə nə qədər davamlı olması ilə bağlı xüsusi və konseptual proqram hazırlamalıdır. Pərakəndə şəkildə, üç-beş sakinin müraciəti ilə sözügedən problemin ümumi həlli mümkünsüzdür. Kimsə məsuliyyətsiz yanaşıb, zəng etməsə, müraciət bildirməsə, bəs nə olacaq? Hansısa dələduzun milyonlar qazanması naminə Bakı şəhərinin əhalisini risk altında qoymaq olmaz".

**İsmayıl Qocayev**

# Hər kəs Türkiyənin yanındadır

## Azərbaycandan Türkiyəyə yardım aksiyası böyük bir hərəkata çevrildi

**"Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədi və sarsılmazdır". Bunu millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, iki dost və qardaş ölkə Azərbaycanla Türkiyə tarixin bütün dövrlərində sevincli və kədərli günlərdə bir-birinin yanında olublar:**

"Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatının və yaralıların olması Azərbaycan xalqını da dərindən kədərləndirdi. Ölkəmiz qardaş Türkiyənin dərdinə şərik çıxdı. Sadə vətəndaşdan tutmuş, dövlət və özəl qurumlara qədər hər kəs Türkiyəyə dəstək olmağa çalışdı. Yardımlar ilk gündən Bakı şəhəri, Babək prospektində toplanmağa başladı. Sonra daha böyük məkanda,



Bakı İdman Sarayında yardım kampaniyası davam etdirildi. Azərbaycan vətəndaşları Türkiyədə zəlzələdən zərərçəkmişlərə yardım üçün uzaqda yerləşən yaşayış məntəqələrindən yardım toplanma məntəqələrinə axın etdilər. Kimisi gödəkçə, şalvar, əlcək, bundan başqa, çətin vəziyyətdə olan insanlara çadır, yorğan, döşək, əl fənəri, generator və s. ehtiyac duyulan nə varsa göndərməyə can atdı".

**C.Məmmədov qeyd edib ki, Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqlarına əsasən, Azərbaycanın dövlət və özəl qurumları yardım aksiyalarına qoşuldular:** "Qısa müddətdə yardım aksiyası böyük bir hərəkata çevrildi. Prezidentin bilavasitə tapşırıq və göstərişlərinə əsasən, hazırda Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər. Azərbaycandan davamlı olaraq həkimlər, xilasedicilər, könüllülər göndərilir. Sona qədər Türkiyənin yanında olacağıq. Heç şübhəsiz, iki dost və qardaş ölkə bu sınaqdan da üzüağ çıxacaq. Yaşasın Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı!".

**İsmayıl**

**İran Prezidenti İbrahim Rəisi Çində səfərdədir. Onu fevralın 14-də səhər saatlarında Pekində hava limanında Çinin mədəniyyət və turizm naziri qarşılayıb. Vurğulanıb ki, səfər Çin sədri Si Cinpinin dəvəti ilə reallaşıb. Məlumata görə, İbrahim Rəisi Çin lideri, baş nazir, parlament sədri ilə görüşəcək.**



# İran Çin üçün etibarlı tərəfdaş ola bilməz

## Vaşinqton Rəisinin Çin trayektoriyasını dərin şəkildə təhlil edəcək

Bundan sonra nümayəndə heyətləri arasında görüş nəzərdə tutulub. Səfər zamanı tərəflər arasında bir sıra sənədlər də imzalanacaq. Qeyd edək ki, son 20 ildə bu, İran Prezidentinin Çinə ilk rəsmi səfəridir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, səfər zamanı qapalı görüşlərdə nələr danışılacağını müəyyən etmək üçün Çin-İran münasibətlərinin təbiətinə, qlobal miqyasdakı proseslərə, onların regionlara təsirlərinə nəzər yetirmək lazımdır.** Analitikin fikrincə, İbrahim Rəisi əlaqələrdə yarımçıqlıq kompleksinə düçar olmuş səhifələri açmaq üçün Pekinə gedir. Məqsəd İranın düşdüyü iqtisadi durumdan, beynəlxalq təcriddən xilas yolları axtarmaqdır: "İranda prezidentlik institutu iqtisadi münasibətlərin tənzimlənməsi meyarları ilə fəaliyyət göstərir. Bu, Tehranın strateji əlini gücləndirə biləcək faktorlara çevrilməlidir. İranla Çinin 2021-ci ilin martında imzaladıqları, Pekinin 25 il müddətində İrana 400 milyard dollar qoyacağı sərmayənin konturlarını müəyyən edən sənədin icrası Tehran üçün hava-su kimi vacibdir. Düzdür, bu sənədə əsasən, İran 400 milyard dollarlıq nəhəng sərmayənin müqabilində Çinə ucuz neft satacaq. Lakin beynəlxalq oyun qaydalarının Ukraynadakı müharibədən sonra dəyişməsi razılaşmanı axsada biləcək səviyyəyə enir. İran bu razılaşmaların icrasının qarşısında dayanan qıfıllara açar salmaq üçün Pekindən zəmanətlər istəyir. Ancaq Çin İrana təhlükəsizlik zəmanətləri deyil, iqtisadi səviyyədə qarantiyalar təqdim edə bilər. Ümumilikdə formul belə qurulub ki, qarşılıqlı maraqlar nüfuz dairələrindən pay verilməsi ilə nəticələnsin. Deməli, İran Yaxın Şərqdə Çinin təsirlərinin heç olmadığı qədər dərinləşdirilməsi üçün Pekini şirnikləndirməyə çalışır. İran atdığı daşı ABŞ-nin başına salmaq istəyir, o mənada ki, Yaxın Şərqdə Pekin-Tehran əməkdaşlıq formatı Vaşinqtonun strateji maraqlarını baltalasın. Ancaq Çinin siyasətində hansısa dövlətin mühafizə edilməsi prinsipləri dayanmır. Ona görə də Tehran strateji təhlükəsizlik məsələlərində Pekinə bel bağlaya bilməz. İran da Çin üçün etibarlı tərəfdaş deyil, ona görə də deyə bilərik ki, iki ölkənin strateji tərəfdaşlıq modelindəki təhlükəsizlik çaları dekorativ bəzəyə oxşayır. Hərçənd ki, İranla Çin müdafiə, silah satışı sahəsindəki əməkdaşlığı ABŞ-yə qarşı geostrateji tarazlıq kimi qiymətləndirirlər".

***Rəisinin səfərində məqsəd İranın düşdüyü iqtisadi durumdan, beynəlxalq təcriddən xilas yolları axtarmaqdır***

*A.Kərimov vurğulayıb ki, tərəfdaşlıqdakı nüanslar ABŞ-nin maraqları və məqsədləri üçün unikal problemlər yaratdığından Vaşinqton Rəisinin Çin trayektoriyasını dərin şəkildə təhlil edəcək:* "Təkcə ona görə yox ki, Çin İranın açdığı kanallarla Yaxın Şərqdəki geniş bir çevrə cıza bilər. Həm də ona görə ki, İranın nüvə proqramına dair aparılan danışıqların tərəfi olan Çin tamamilə Tehran tərəfə yıxılıb nüvə silahının hazırlanmasına təkan verəcək alternativ qüvvədir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, Çinin son məqsədi İranı Qərbin caynaqlarından qoparmaq deyil. Hansısa ən təhlükəli anda Pekin Tehranı tək buraxıb onun öz qeydinə qalmasını tələb edəcək. Çinlə İranı "Bir kəmər, bir yol" təşəbbüsü, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki iqtisadi aspektlər də tərəzinin eyni gözündə qərarlaşdırır. Məsələnin bu tərəfi Çinin dəstəklədiyi Zəngəzur layihəsi üzrə də siyasi-iqtisadi parametrlərin danışıqlar stolunda bərqərar olmasını labüd edir. Çünki Çin Zəngəzur dəhlizi layihəsini həm "Bir kəmər, bir yol" təşəbbüsünün, həm də "Şərq-Qərb" beynəlxalq dəhlizinin tərkib hissəsində görür. İran isə Zəngəzur dəhlizinin geostrateji maraqlar baxımından özünə təhdid yaratdığını düşünür. Hərçənd, iqtisadi aspektlər üzrə elə də dərin mübahisələr yoxdur. İstənilən halda, İranın Zəngəzur dəhlizi ilə bağlı tutumu Çini narahat edə biləcək səviyyədədir. Mümkündür ki, Cinpin Rəisiyə ölkəsinin dəstəklədiyi layihəyə maneə yaratmaması üçün fikirlər aşılasın".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İctimai və dövlət maraqlarının müdafiəsi



# "E-tebib" sisteminin tətbiqinə başlanılır

## İcbari Tibbi Sığorta üzrə vətəndaş məmnunluğu getdikcə artır

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "1542" Çağrı mərkəzində media və qeyri-hökumət nümayəndələri üçün "Açıq qapı" günü təşkil edilib. "Açıq qapı" gününün keçirilməsində məqsəd iştirakçıları qurumun Çağrı mərkəzinin fəaliyyəti ilə əyani tanış etmək, zənglərin cavablandırılması və qeydə alınması proseslərini izləmələrinə şərait yaratmaq, onları maraqlandıran sualları cavablandırmaqdır. Ötən ilin sonunda Çağrı mərkəzinin fəaliyyəti müasir tələblərə uyğunlaşdırılıb.**

Bu sahəyə məsul əməkdaşların sayı artırılıb, müraciətlərin qəbulu, avtomatik qeydiyyatı və aidiyyəti üzrə yönləndirilərək operativ cavablandırılması sisteminin təkmilləşdirilməsi üçün müvafiq işlər aparılıb. Çağrı mərkəzi xidmətinin rəhbəri Nərminə Ramazanova bildirib ki, görülən tədbirlər mərkəzə müraciətlərin daha da asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılmasına istiqamətlənib: "2022-ci ilin noyabr ayından etibarən "1542" Çağrı mərkəzinin işini tam avtomatlaşdırmağa imkan verən yeni proqram təminatı qurulub. Proqram təminatı müraciətçilərlə əlaqələrin idarəedilməsi, qəbul edilən zənglərin qeydiyyatının, məlumat bazasının, ümumilikdə hesabatlılığın təmin edilməsinə, işin keyfiyyətinin canlı izlənilməsinə imkan verir". N.Ramazanova Çağrı mərkəzinin fəaliyyəti ilə bağlı digər yenilikləri də diqqətə çatdırıb: "Noyabr ayından etibarən icbari tibbi sığorta ilə bağlı yeni xətt - göndərişlərin verilməsi xətti (1542-3) istifadəyə verilib. Bu xəttə zəng etməklə vətəndaşlar sığorta çərçivəsində dövlət və özəl tibb müəssisələrinə göndərişlərin verilməsi qaydası ilə bağlı suallarına cavab ala bilərlər. Artıq bu günədək bu mövzuda 3926 müraciət cavablandırılıb. Bundan əlavə, Çağrı mərkəzi Azərbaycan dili ilə yanaşı, rus dilində də fəaliyyət göstərir. Noyabrdan bugünədək rus dilində ümumilikdə 1171 müraciət cavablandırılıb". Agentliyin Çağrı mərkəzində ümumilikdə 42 əməkdaş xidmət göstərir. Yanvar ayına olan göstəriciyə görə, mərkəzə gün ərzində ortalama 814 zəng daxil olub. Müraciət zamanı gözləmə müddəti orta hesabla 22 saniyə, vətəndaşlarla danışıq müddəti isə orta hesabla 1 dəqiqə 09 saniyə olub. 2022-ci il ərzində isə "1542" Çağrı mərkəzinə ümumilikdə 216 252 müraciət daxil olub. Çağrı mərkəzinin icbari tibbi sığorta ilə bağlı xəttinə 42 694, əlillik məsələləri ilə bağlı xəttinə 12 489, koronavirusla bağlı xəttinə 6471, operator ilə əlaqə xəttinə isə 154 598 müraciət daxil olub. Bütün müraciətlər operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən məsələlər aidiyyəti üzrə müvafiq struktur bölmələrə yönləndirilib və müraciət edən şəxslər araşdırmaların nəticələri barədə məlumatlandırılıblar. Agentliyin Çağrı mərkəzi 5 yönəldici xətt üzrə xidmət göstərir. Çağrı mərkəzinin icbari tibbi sığorta xətti (1542-1), əlillik məsələləri ilə bağlı xətti (1542-2), göndərişlərin verilməsi ilə bağlı xətti (1542-3), koronavirusla bağlı xətti (1542-4) həftəiçi 5 gün 09:00-dan 18:00-dək, operator ilə əlaqə xətti (1542-0) isə 7/24 fəaliyyət göstərirlər. Üstünlüklərdən biri də budur ki, respublikanın istənilən regionundan stasionar və mobil telefonlardan "1542" Çağrı mərkəzini ödənişsiz yığmaq mümkündür. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova isə daha bir yenilik barədə məlumat verib. A.Əhmədova bildirib ki, icbari tibbi sığorta üzrə E-tebib mobil tətbiqi fəaliyyətə başlayır. Bundan sonra E-tebib mobil tətbiqi vasitəsilə tibb müəssisələrində onlayn növbə götürmək mümkün olacaq artıq. O bildirib ki, bu proses tibb müəssisələrində icbari tibbi sığortadan istifadə edənlər üçün növbə prosesinin asanlaşdırılması məqsədi daşıyır: "Bilirsiniz ki, icbari tibbi sığortadan istifadə edənlərin sayı artdığından xəstəxanalarda və digər tibb müəssisələrində növbələr yaranır. Bu problemi həll etmək üçün "e-tebib" tətbiqində tibb müəssisələrində onlayn növbə götürülməsi üçün bölmə yaradılır. Həmin bölmə yaxın vaxtlarda istifadəyə veriləcək və xəstəxanalarda növbə problemi aradan qalxacaq".

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında icbari tibbi sığorta imkanlarının genişlənməsinin əhalinin tibbi xidmətlərə əlçatanlığını getdikcə artırdığını bildirdi:**

***"Vətəndaşlar növbələrdə vaxt itirməyəcək, onlayn qaydada müraciət edərək növbə götürə biləcək, təyin olunan vaxtda da müayinə üçün tibb müəssisəsinə gələcəklər"***

- Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (TƏBİB) yaradıldı. Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrin bir çoxu TƏBİB-in tabeliyinə verildi. Məqsəd vətəndaşların səhiyyə xidmətlərinə ödənişsiz əsaslarla əlçatanlığının təmini üçün icbari tibbi sığortanın tətbiqi idi. Bunun üçün də tibb müəssisələrinin fəaliyyətinin icbari tibbi sığorta sisteminin tələblərinə uyğunlaşdırılmasına, səhiyyədə idarəetmənin təkmilləşdirilməsinə başlanıldı. Bilirsiniz ki, icbari tibbi sığorta əvvəlcə bir neçə rayonda pilot layihə olaraq icra edilib, 2021-ci ildən etibarənsə icbari tibbi sığorta bütün ölkəni əhatə edir. Getdikcə daha çox xəstəliklər, müalicələr icbari tibbi sığortanın əhatə etdiyi xəstəliklər siyahısına daxil edilir. Bu barədə bir neçə dəfə Milli Məclisdə də məsələ qaldırılıb, müalicəsi, əməliyyatı böyük vəsait tələb edən xəstəliklərin icbari tibbi sığortaya cəlb olunması vacib sayılıb. Ümid edək ki, yaxın zamanda vətəndaşları narahat edən bu məsələlər də həllini tapar. İcbari tibbi sığortadan daha çox vətəndaş istifadə etməyə can atdığından, təbii ki, burada bir sıra problemlər də yaranır. Tibb müəssisəsində çalışdığım üçün əhalinin, xüsusən də müayinə olunmaq üçün uzun növbələrdə dayandığından xəbərdaram. Çox yaxşı haldır ki, bundan sonra E-tebib sistemi tətbiq olunacaq. Vətəndaşlar növbələrdə vaxt itirməyəcək, onlayn qaydada müraciət edərək növbə götürə biləcək, təyin olunan vaxtda da müayinə üçün tibb müəssisəsinə gələcəklər. Bu sistemin tətbiqi vətəndaşları bir xeyli rahatladacaq. Səhiyyə xidmətlərinin yüksəlməsinin də daxil olduğu sosial islahat paketləri ilk növbədə vətəndaş məmnunluğunu nəzərdə tutur. İnanıram ki, E-tebib mobil tətbiqindən də vətəndaşlarımız, pasiyentlər razı qalacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Marketlərdə və bazarlarda yodlaşdırılmamış duz satılır

## Mağazalarda ciddi monitorinq aparılmalı, gömrük orqanlarına tapşırıq verilməlidir




**"Azərbaycanda uzun müddət yod çatışmazlığı xəstəliyi mövcud olub. 2001-ci ilin 27 dekabrında "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədilə duzun yodlaşdırılması haqqında qanun" qəbul edilib.**

Qanunun 8.3 maddəsində qeyd olunur ki, yodlaşdırılmamış duzun qida və yem məqsədləri ilə istehsalı, satışı və Azərbaycan Respublikasında idxalı qadağandır".

**Bunu "Şərq"ə açıqlamasında Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib.**

Onun sözlərinə görə, qanunun həyata keçirilməsi üçün AİB bir neçə layihə icra edib: "BMT-nin duz üzrə eksperti ilə dəfələrlə gecə Masazır gölünün rəngini dəyişməsini izləmişik. Rayonlarda ailələr səviyyəsində monitorinqlər aparmışıq. Nəhayət, qanunun həyata keçirilməsində müvəffəqiyyətlər əldə olunub.

Vaxtilə bazarda cəmi 15 faiz yodlaşdırılmış duz olduğu halda, hazırda 85 faizdir.



Duzun yodlaşdırılmasına dair standart da mövcuddur. Həmin standarta əsasən, 1 kiloqram duzun tərkibində 40 milliqram yod olmalıdır. Üstəlik, yodlaşdırılmış duzun yararlılıq müddəti 1 ildən artıq deyil. Çünki 1 ildən sonra yod duzun tərkibindən uçur. Yodlaşdırılmış duz qaranlıq yerdə saxlanılmalıdır. İsti yox, nisbətən soyuq xörəyə tökülməlidir".

*E.Hüseynovun qənaətincə, istehsalçı "S S Brothers" şirkəti yodlaşdırılmış duzun yararlılıq vaxtını 1 ildən artıq qoyub:*

"Güman ki, yodun miqdarı duzun tərkibində deyilən standartlara uyğun olmayıb. Ona görə də Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA ) haqlı olaraq qarşısını alıb. AQTA-dan xahiş edirəm ki, boynunu çevirib marketlərə də baxsın. Marketlərdə 15 faizdən yuxarı yodlaşdırılmamış duz satılır. Müxtəlif ölkələrdən gətirilir. 1 kiloqramının qiyməti 10 manat duzlar da var. Dəniz duzu, zənginləşdirilmiş duz adı altında satılır. Azərbaycana bir çox ölkələrdən duz idxal edilir, o cümlədən, İran və Ukraynadan və s. Duz bazarında liberal azad bazar şəraiti olarsa, duzun qiyməti də aşağı düşər. Pakistandan duz idxal edən şəxs duzun tərkibindəki yodun miqdarını yerində yoxlasın.

Əhalinin yodlu duzu tanıması o qədər asan deyil. Yod duzun tərkibində qoxu vermir. Sadəcə, etiketinə baxmaq lazımdır. Duzu yodlaşdırmayan bəzi şirkətlər yalandan üzərinə "yodlu duz" yazır. Bəlkə də yod vurmur, yaxud normadan aşağı olur".

E.Hüsyenov çağırış edib: "Mağazalarda ciddi monitorinq aparılsın. Gömrük orqanlarına tapşırıq verilsin. Yodsuz duzun Azərbaycana idxalı qanunun 8.3 maddəsinə görə, qadağan olunduğu üçün heç bir aldadıcı reklamlara inanmasınlar. Duzun tərkibini xüsusi testlərlə yoxlayırlar. AİB-də, gigiyena, həmçinin gömrük orqanlarında həmin testdən var. 30 saniyəyə müəyyən etmək mümkündür. Yodun miqdarı da standartlara uyğunlaşdırılmalıdır".

**Aygün Tahir**




# Tək dövlətin işi deyil, prosesə digər qurumlar da qoşulmalıdır

## Müəyyən fors-major situasiyalarda sosial şəbəkələrin cəmiyyətə vuracağı ziyanı minimuma endirmək üçün qabaqlayıcı addımlar atılmalıdır

**"Sosial media ilə bağlı problemlər təkcə Azərbaycanda deyil, bütün dünyada mövcuddur".**

**Bunu "Şərq"ə internet-media eksperti Səbuhi Abbasov Türkiyədəki zəlzələdən sonra sosial şəbəkələrdə yayılan qeyri-dəqiq, həqiqət payı olmayan informasiyalarla bağlı danışarkən deyib.**

O, diqqətə çatdırıb ki, qardaş Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra tviter bir neçə günlük bağlandı: "Məqsəd dezinformasiyaların yayılması, əhalinin panikaya sürüklənməsi, mövcud vəziyyətin daha da qəlizləşdirilməsinə hesablanan addımların atılmasının qarşısını almaq üçün idi. Azərbaycanda isə sözügedən məsələ ilə bağlı dəfələrlə problem yaşanıb. Hətta Aprel döyüşləri, daha sonra 44 günlük Vətən savaşı müddətində, xüsusən də, tiktok sosial şəbəkəsində dezinformasiyaların yayılmasının şahidi olurduq. Bəzən hüquq-mühafizə orqanlarının mövcud problemlərlə məşğul olmadığı barədə iddialarla qarşılaşırıq. Məsələn, feysbuk sosial platformasının təxminən 2 milyona yaxın istifadəçisi var. Digər sosial şəbəkələrdə təqribən bu rəqəm milyondan çoxdur. Ona görə də hüquq-mühafizə orqanlarının bütün istifadəçiləri tək-tək izləməsi, onlarla bağlı müəyyən tədbirlər görməsi qeyri-mümkündür.

Azərbaycanda hazırda ən böyük problem informasiya təhlükəsizliyidir. Cənab Prezident İlham Əliyev bununla bağlı dəfələrlə sərəncam imzalayıb. Lakin icra edilməsində ciddi problemlər var. Yeganə məsul qurum Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir. Ancaq indiki şəraitdə nəinki informasiya və internet təhlükəsizliyini təmin etmək, heç bu istiqamətdə tədbirlər də görülmür.

Ona görə də prosesə digər qurumlar qoşulmalıdır. Müəyyən fors-major situasiyalarda sosial şəbəkələrin cəmiyyətə vuracağı ziyanı minimuma endirmək üçün qabaqlayıcı addımlar atılmalıdır. İlk növbədə, həmin şəbəkələrə girişin

**"Hansı sosial şəbəkələrin ölkədə rəsmi nümayəndəlikləri varsa, orada sosial platformaların idarəçiliyində problemlər qismən az olur"**

bəlli bir müddətə qədər bloklanması, bağlanması vacibdir. Eyni zamanda müəyyən məsələlərdə süzgəclər tətbiq edilə bilər".

Mütəxəssis vurğulayıb ki, hansı sosial şəbəkələrin ölkədə rəsmi nümayəndəlikləri varsa, orada sosial platformaların idarəçiliyində problemlər qismən az olur: "Məsələn, yenə də qardaş Türkiyədən nümunə göstərə bilərik. Orada tvitterə məhdudiyyət qoyulan kimi adıçəkilən şəbəkə rəsmi açıqlama verdi. Amma Azərbaycanda təəssüf ki, heç bir sosial şəbəkənin rəsmi nümayəndəliyi olmadığına görə bu məsələlərin idarə edilməsində ciddi problemlər yaşanır".

**S.Abbasovun qənaətincə, məlum məsələnin həlli üçün Qeyri-Hökumət Təşkilatları (QHT) və Kütləvi İnformasiya Vasitələri (KİV) - televiziya, radio, qəzet və saytlar da daxil olmaqla ciddi maarifləndirmə işləri aparılmalıdır:** "Sosial şəbəkələrin açılmamaq üzrə qapadılması isə dövlətin imicinə müəyyən qədər zərər gətirə bilər. Ona görə də elə tədbirlər görülməlidir ki, sosial şəbəkə sahibləri Türkiyədə olduğu kimi, Azərbaycanda da dezinformasiyaların, cəmiyyətdə çaşqınlıq yaradan məlumatların yayılmasının qarşısını birbaşa elə həmin şirkət hesabına alsınlar".

*Qeyd edək ki, Türkiyədə baş verən zəlzələdən sonra sosial şəbəkələrdə dezinformasiyalar yayılır. Bəzi "mütəxəssislər" reytinq xatirinə Azərbaycanda da zəlzələ olacağını deyərək, insanlarda təşviş yaradırlar. Əsasən də, tiktok sosial platformasında belə dezinformasiyalara tez-tez rast gəlirik. Səhhətində problem olan şəxslər isə yanlış məlumatlara inanır, təsirlənir və panikaya düşürlər.*

**Sücayət Mehti**

# "Fast-food" tipli yeməklər bir bəladır

## Məktəbyaşlı uşaqlar arasında xəstəliklər artıb

**"Qış mövsümü ilə bağlı uşaqlar arasında bəzi qastroenteroloji problemlərin artması müşahidə olunur. Bunlardan qastrit, reflüks, mədə qanaması, qarında ağrı və sancını xüsusi ilə qeyd etmək istəyirəm".**

*Bu sözləri nazirliyin sosial media hesablarına ünvanlanan sualları cavablandıran Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Anar Tağıyev deyib.* Həkimin sözlərinə görə, kəskin respirator virus infeksiyalarının, o cümlədən influenzanın artması uşaqlarda düşməyən qızdırmaya səbəb olur. Bu zaman valideynlər müxtəlif qızdırma salıcı preparatlarla temperaturu salmağa çalışırlar və bəzən bu dərmanlar lazım olandan artıq miqdarda istifadə olunur ki, bu da müxtəlif mədə-bağırsaq problemlərinin əmələ gəlməsinə səbəb olur.



**A.Tağıyev deyib ki, son zamanlar məktəbyaşlı uşaqlar arasında "fast food" tipli yeməklərin, müxtəlif qazlı suların, energetik içkilərin, mayonez, dönər, "ketchup" kimi qidaların populyar olması müxtəlif mədə-bağırsaq problemlərinin, o cümlədən qastrit və reflüks xəstəliyinin artmasına gətirib çıxarıb:** "Məktəbyaşlı uşaqların bu qidalardan çox istifadə etmə halları mədə ağrıları, qarında sancılar, bağırsaq pozğunluqları kimi ağırlaşmalara gətirib çıxarır.

Qəbizlik də uşaq qastroenterologiyasında həmişə sıx rast gəlinən bir mədə-bağırsaq problemidir. Problemi aktual edən qəbizliyin hər yaşda görülməsi və uşaqlarda ciddi diskomforta səbəb olmasıdır. Təəssüf ki, əksər hallarda valideynlər həkimə çox gec müraciət edirlər. Bu zaman qəbizlik xronikləşir və müxtəlif fəsadlara səbəb olur. Bu zaman isə təbii ki, qəbizliyi müalicə etmək çox çətin olur.

Qəbizliyin artmasının yaşdan asılı olaraq bir çox səbəbləri vardır. Körpə uşaqlarda ana südü yerinə müxtəlif növ süni qidaların istifadəsi qəbizliyin daha kiçik yaşlarda görülməsinə gətirib çıxarır. Ana südü təbii qəbizlik əleyhinə dərmandır. Qəbizliyin əsas səbəblərindən biri də uşaqların daha çox oturaq həyat tərzi keçirmələri və "fast-food"dan çox istifadə etmələridir. Bağırsağın normal işləməsi üçün əsasən su və lif lazımdır. Bir sıra şəkərli qidalarda, asan həzm olunan karbohidratlarda bitki lifləri olmur. Bitki lifləri əsasən meyvə, tərəvəz, ət kimi məhsullarda və bəzi taxıllarda olur. Uşaqlar arasında son vaxtlar telefon və kompüterdən istifadə, həm oturaq həyat tərzi, həm də bütün diqqətlərini oyuna, kompüterə verdikləri üçün nəcis ifrazının əngəllənməsinə və qəbizliyə səbəb olur".

**Şəymən**

# Uşaqda yüksək hərarət olarsa, nə etmək lazımdır?

## Pediatr qızdırmanın səbəbləri və ona qarşı mübarizə üsullarından danışıb

**"Hərarəti zorla salmaq xəstəliyin gedişini dayandırmır, eyni zamanda müxtəlif ağırlaşmalara gətirib çıxarır". Bu xəbərdarlığı Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Anar Tağıyev edib. Həkimin sözlərinə görə, hərarəti salmaq üçün bütün dünyada əsasən Asetaminofen (Parasetamol) tərkibli dərmandan istifadə edilir: "Temperatur orqanizmin qoruyucu funksiyasıdır və orqanizm virus və ya digər mikroorqanizmlərlə mübarizə etmək üçün 38 dərəcəyə yaxın temperaturda daha aktiv mübarizə aparır.**

Xüsusi hallarda (febril qıcolma, ürək-tənəffüs çatışmazlığı, bəzi ürək xəstəlikləri) hərarəti salmaq lazım gəlir. Qalan bütün hallarda hərarət 38 dərəcədən yuxarı olarsa, o zaman müdaxilə etmək lazımdır. Əgər hərarət düşmürsə, mexaniki üsullardan istifadə etmək olar. Bunun üçün ılıq duş (soyuq olmaz) almaq, iri damarlar olan nahiyələrə çox da soyuq olmayan tək qatlı isladılmış bintlərin qoyulması kimi üsullardan istifadə etmək lazımdır. Parasetamol uşaqlarda hər kiloqram çəkiyə 10-15 mq, yüksək temperatur davam edərsə, 4-5 saat aralıqlarla verilməlidir. Əks halda qaraciyərdə funksiya pozğunluğuna, mədənin selikli qişasında qanamaya səbəb olub, vəziyyəti daha da ağırlaşdıra bilər. O cümlədən də hərarəti olan uşağa eyni anda dərman və şam vermək olmaz".

**Yüksək qızdırmanın səbəbləri və ona qarşı mübarizə üsulları ilə bağlı "Şərq"ə danışan pediatr Fərəh Əsədova deyib ki, uşaqlarda temperaturun yüksəlməsinin ən çox yayılmış səbəbləri - kəskin respirator virus infeksiyası (KRVİ), qrip, angina və s. xəstəliklər olur:** "Temperaturun yüksəlməsi hər hansı bir infeksiyaya qarşı bədənin təbii reaksiyasıdır. Orqanizm infeksiya ilə mübarizə apararkən, immun sistemini səfərbər edən, xüsusi maddə olan interferon hazırlayır. Hərarət yüksək olduqca, interferon daha çox miqdarda hazırlanır. Bundan başqa, yüksəlmiş hərarət, orqanizmə daxil olan infeksiyalarla mübarizə etmək üçün qanda anticisimlərin əmələ gəlməsini də stimullaşdırır. Temperaturun yüksəlməsi iştahanın azalmasına, uşağın az hərəkət etməsinə səbəb olur. Bu isə xəstəliyə qarşı mübarizədə vacib olan - bədən enerjisinə qənaət etməyə imkan verir. Beləliklə, temperaturun müəyyən səviyyəyə qədər yüksəlməsi, bədənə nəinki ziyan vurmur, hətta əksinə olaraq xəstəliyə qarşı mübarizədə qalib gəlməkdə orqanizmə kömək edir. Ancaq hərarətin çox yüksəlməsi uşaq orqanizmi üçün çox təhlükəlidir! Bəzi hallarda yüksək hərarət uşaqlarda qıcolmalara səbəb ola bilər".



Pediatr valideynlərə tövsiyə edib ki, "zərərsiz" hesab edilən angina və qripdən savayı, hərarətin xeyli dərəcədə yüksəlməsi (39o C-dən artıq), digər daha ağır və təhlükəli olanpnevmoniya (ağ ciyərlərin iltihabı), pielonefrit (böyrəklərin iltihabı), sepsis (təhlükəli mikrobların qana keçməsi) və s. xəstəliklər nəticəsində də ola bilər. Buna görə də yüksək hərarət zamanı uşağa ilkin yardım göstərdikdən sonra, uşağa nəzarət edən həkim-pediatrı tez bir zamanda evə çağırmaq lazımdır. Həkim uşağı müayinə edərək temperaturun yüksəlməsinin səbəbini müəyyən etdikdən sonra ona müvafiq müalicə də təyin edəcəkdir.

**"Uşaqda yüksək hərarət olarsa, nə etmək lazımdır" sualına gəldikdə isə F.Əsədova deyib ki, əgər uşaqda üşütmə varsa, dəri solğundursa, əl və ayaq pəncələri soyuqdursa, buna ağ hiperemiya və ya ağ qızdırma deyirlər:** "Bu zaman uşağı yatağa uzatmaq, üstünü isti şəkildə örtmək, ayaqlarına isti corab, əllərinə əlcək geyindirmək, soyuq olan ətraflarını açıq qırmızı rəng alana qədər intensiv şəkildə ovxalamaq, dörddə bir-1/2 tablet (yaşdan asılı olaraq) no-şpa, limon və moruq ilə isti çay, itburnu dəmləməsi və s. vermək lazımdır. Əgər bunlar kömək etməsə və temperatur yüksəlməkdə davam etsə, temperaturu aşağı salan dərman vermək lazımdır. Ağ qızdırmada bədəni nəm əski ilə sürtmək və soyuq kompresslər etmək qəti olmaz. Əgər uşaqda istiləşmə, dərinin qırmızı və ya açıq qırmızı rəngdə olması, ayaq pəncələri və əllərin isti olması qeyd edilərsə, buna qırmızı hiperemiya və ya qırmızı qızdırma deyirlər. Onu heç bir halda isti geyindirmək, yataqda uzanarkən üstünü isti yorğanla örtmək olmaz. Əksinə, bu zaman uşağı yüngül geyindirmək, yataqda uzanarkən üstünü yüngül adyal ilə və ya mələfə ilə örtmək, otağın pəncərəsini və ya nəfəsliyini açmaq, havanın kifayət qədər nəmliliyini təmin etmək üçün otağın döşəməsini tez-tez silmək və ya otağa nəmləndirici qoymaq lazımdır. Uşağa daha çox sərin (isti yox) maye - su, kompot, limonlu çay dəmləməsi vermək lazımdır. Tez-tez sidik ifraz edilməsi temperaturun enməsinə kömək edir. Yeməyə gəldikdə isə temperaturu olan uşaqda iştahanın olması çətin məsələdir, onu zorla yedizdirmək isə məsləhət görülmür. Qırmızı hiperemiya zamanı kiçik uşaqlarda temperaturu aşağı salmaq üçün, öncə fiziki üsullardan - sərin su ilə imalə, kompresslər, bədəni nəm dəsmalla sürtmə və s. bu kimi üsullardan istifadə etmək olar. Onu da deyim ki, 3 ayından - 3 yaşadək uşaqlarda temperatur 38°C-dən, 3 yaşdan böyük uşaqlarda isə 38,6°C-dən aşağı olarsa və eyni zamanda uşaq özünü yaxşı hiss edərsə, temperaturu aşağı salmaq lazım deyil.

Yox əgər temperaturun dərəcəsindən asılı olmayaraq uşaq özünü yaxşı hiss etmirsə və yaxud uşaqda xroniki somatik xəstəliklər (ürək, ağ ciyər, beyin və ya sinir sistemi patologiyası) varsa, daha öncədən qızdırma fonunda qıcolma tutması olubsa, 38 dərəcəni gözləmədən profilaktik tədbirlər görmək lazımdır".

**Pediatrın sözlərinə görə, temperaturu aşağı salmaq, heç də problemin tam həll edilməsi demək deyil. Əsas məsələ, temperaturun yüksəlməsinə səbəb olan xəstəliyi aşkar edərək onu müalicə etməkdən ibarətdir:** "Uşaqlarda temperaturu aşağı salmaq üçün istifadə edilən dərman preparatları çox olsa da, onların tərkibinə eyni təsiredici maddələr daxildir. Təcrübədə isə daha çox parasetamol, ibuprofen və analgin tərkibli preparatlardan istifadə olunur. Qanda hemoqlobinin səviyyəsini aşağı saldığı və leykositlərin bəzi növlərini parçaladığı üçün, bir çox ölkələrdə, analgin və onun preparatlarından istifadə edilməsi çox təhlükəli ola bildiyi üçün qadağan edilib. Ona görə də onu yalnız digər preparatlar kömək etmədiyi müstəsna hallarda istifadə etmək olar. Lakin çox təəssüf ki, bizim "Təcili yardım" həkimləri yüksək temperaturu aşağı salmaq üçün məhz analgin inyeksiyasından istifadə edirlər. O cümlədən də aspirinin uşaqlar və hamilə qadınlar tərəfindən qəbul edilməsi qəti şəkildə qadağan edilib. Geniş şəkildə istifadə edilməsinə baxmayaraq, bu dərman preparatının ciddi yanaşı effektləri də vardır. Məsələn, bu dərman uşaqlarda bronxların spazmı, mədə xorası, Rey sindromu (qara ciyərin ciddi zədələnməsi) kimi fəsadlara səbəb ola bilər. Valideynlər onu da bilməlidirlər ki, əgər temperaturun ilk yüksəlməsi zamanı onlar uşağa tərkibində parasetamal olan dərman preparatı veriblərsə, temperaturun növbəti dəfə yüksəlməsi zamanı, ağır allergik reaksiyanın başvermə ehtimalı səbəbindən, ona tərkibində ibuprofen olan dərman vermək olmaz. Uşağın temperaturu enməyə başladıqda, ona limon, zoğal və ya moruq ilə çay içirtməyə çalışın".

**F.Əsədovanın sözlərinə görə, böyüklərdə olduğu kimi, uşaqlarda da hərarəti qoltuq altından ölçmək lazımdır. Temperaturun ölçülməsi üçün adi civəli termometrdən istifadə etməyi məsləhət görən pediatr şəxsi müşahidələrinə əsasən deyib ki, elektron termometrlər rahat olsa da, tez-tez "səhv edirlər":** "Uşağın özünün şəxsi termometri olmalıdır və hər dəfə istifadə edilməzdən əvvəl onu spirtlə silmək lazımdır. Uşağın bədən temperaturunu o, arxası üstə uzanarkən ölçmək daha yaxşıdır. Bu zaman qoltuqaltı nahiyə quru olmalıdır. Əgər uşaq tərləmişsə, əvvəlcə qoltuğun altını silmək lazımdır. Termometri uşağın qoltuğunun altına qoyaraq, onun sürüşüb düşməməsinə nəzarət edin. Civəli termometr ilə temperaturun ölçülmə müddəti 5-7 dəqiqədir. Uşaq xeyli bürünmüş olarsa, bu, xüsusən də körpə uşaqlarda, temperaturun nəticəsinə təsir edə bilər. Uşaq xeyli yorğun və əsəbi olduqda, ağladıqda və s. bu kimi hallarda da onun temperaturunu ölçməyi təxirə salmaq lazımdır".

**Şəymən Bayramova**



# Paytaxtda yeni binaların bünövrəsi nisbətən sağlamdır

## Çoxmərtəbəli binalardakı əsas təhlükə onların giriş mərtəbəsindədir

**Bir neçə gündür ölkə ictimaiyyətinin əsas gündəmi çoxmərtəbəli binaların zəlzələyə davamlılıq məsələsidir. Türkiyədə baş verən zəlzələ nəticəsində binaların dağılması ölkəmizdə də bu sahəyə diqqəti artırıb.**

Son illər tikilən çoxmərtəbəli binaların zəlzələyə nə qədər davamlı olması ilə bağlı mütəxəssislər fərqli fikirlər səsləndirir. Hətta bəzi mütəxəssislər qeyd edir ki, yeni binaların bir qismi zəlzələyə davamlı deyil, tikintisi zamanı bütün zəruri amillər nəzərə alınmayıb.

**Hüquqşünas, professor Fərhad Mehdiyev isə hesab edir ki, çoxmərtəbəli binalardakı əsas təhlükə onların giriş mərtəbəsindədir:** "Həmin mərtəbədə əsas qeyri-yaşayış sahələri olur, ticarət obyektləri və arakəsmə divarları da demək olar ki yoxdur, ancaq beton sütunlardır. Onu da qeyd edim ki, yüngül olsun deyə arakəsmələrdə istifadə olunan kərpiclərin təzyiqə qarşı hansısa müqavimət gücü yoxdur. Giriş mərtəbəsində sağlam divarlar olmadıqca, mövcud beton sütunların nə qədər dözümlü olacağı sual yaradır. Hər hansı bir titrəmə zamanı həmin sütunlar üstündəki ağırlığın da təsirilə dərhal qırılır və çökən binada üst hissə nə qədər sağlam olsa da, hər şey dağılır. O cür binalarda FHN giriş və ikincə mərtəbələrdə əlavə gücləndirici vasitələr quraşdırılmasını tələb etməlidir. Bu, yerinə görə divar, əlavə dəmir konstrukisyası, ya da sütunların qalınlaşdırılması ola bilər".

*F.Mehdiyevin sözlərinə görə, paytaxtda tikilən yeni binaların bünövrəsini nisbətən sağlam atırlar, lakin giriş mərtəbəsindən binalar incə ayaqlı durnaya oxşayır.*

**Şəymən**


**Elan**

5 mart 2008-ci il tarixdə "Eyfel" MMC tərəfindən Əhmədova Bəhriyyə Fitat qızının adına verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

İsmayılov İsmayıl Əvəz oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Zaqulba İqamətgahının işçisi Məmmədov Rauf Hüseyn oğlunun adına verilmiş 178 saylı 31 dekabr 2023-cü il tarixə kimi etibarlı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır

**Elan**

Nəzərinizə çatdırırıq ki, biz "Gulf Velding Services Est" MMC şirkətini 10.02.2023-cü il tarixindən satmışıq. Tərəfimizdən bütün ödənişlər tamamlanmışdır. Kiminsə ödənişlə bağlı şikayət və təklifləri varsa göstərilən tarixdən 5 iş günü ərzində bizə müraciət edə bilər.


# Cənnət diyarının xeyirxahları

## Bu dəyərli ziyalılar xoşməramlı missiyalar həyata keçirirlər

**Cənnət diyarının xeyriyyəçiləri-doğulduqları Gədəbəy rayonunda da az iş görməyib. Həmin bölgənin təbiəti kimi saflığı, sadəliyi, alicənablığı, humanistliyi və xeyriyyə dəyərlərini özündə cəmləşdirən Hidayət Heydərov həmyerlisi Rövşən Tağıyevlə birlikdə doğma Canaqçı, qonşu kəndlərdə çoxlu sayda xeyriyyə tədbirlərini həyata keçiriblər. Yolumu Canaqcıdan salarkən onların gördükləri xeyli işlərin bir daha şahidi oldum. İlk növbədə mənim diqqətimi çəkən həmin kəndin girəcəyində quraşdırılmış Şəhidlər xiyabanı kompleksi cəlb etdi.**

Zəfər bayramı ərəfəsində açılışı olmuş bu kompleksdə Xınna dərəsində yerləşən Canaqcı,Nərimankənd, Qoşabulaq, Pərzamanlı və digər kəndlərindən olan Birinci Qarabağ və İkinci Qarabağ Savaşındahəlak olan 20 nəfər gəncin xatirəsi böyük ehtiramla yad edilir. Müasir üslubda inşaa edilən Şəhidlər xiyabanı kompleksində şəhidlərin iri portretlərisanki canlandırılıb. Komleksin ətrafında yaşıllaşdırma və abadlıq işləri aparılıb.Kompleksin açılışına həsr olunmuş tədbirdə iştirak edən şəhid ailələri diqqətə görə bu xeyirxah işin təşəbbüskarları, icraçıları olan Hidayət Heydərova, Rövşən Tağıyevə minnətdarlıqlarını bildiriblər. Ümumiyyətlə, adlarını hallandırdıqlarım bu xeyriyyəçilər təkcə bu işlərlə kifayətlənməyərək həmin şəhid ailələrini diqqət mərkəzində də saxlayırlar. 1941-1945-ci illərdə baş verən Böyük Vətən müharibəsindəÇanaqçı kəndindən 700 nəfər kənd sakini döyüşüb. Onlardan 350 nəfəri savaşda qəhrəmancasına həlak olub. Gələcək nəsil həmin tarixi hadisənin unudulmaması üçün Hidayət müəllimin təşəbbüsü ilə kəndə ucaldılmış Böyük Vətən müharibəsində həlak olan kənd sakinlərinin xatirəsinə ucaldılmış abidəsini Rövşən Tağıyevlə birlikdə əsaslı təmir edib və ətrafında abadlıq işləri aparmışdılar. Bu xeyriyyəçilər bu veteran ailələrinədə vaxtaşırı yardımlar edir və onları diqqət mərkəzində saxlayırlar.




H.Heydərovun və R.Tağıyevin-doğmael-obasında gördükləri xeyriyyə işləri təkcə bunlarla kifayətlənmir. Onlarınkənddaxili yolların, sakinlərə xidmət göstərən yardımçıbinaların təmir olunmasında, kənd uşaq bağçasının, kənd tibb məntəqəsinin yenidən qurulmasında böyük əməkləri vardır. Hazırda uşaq bağçasındavə tibb məntəqəsində də istilik sistemləri quraşdırılır. Məhz Hidayət müəllimin təşkilatçılığıilə Çanaqçı kəndinin camaatına məxsus kənddən 12 km aralıda yerləşəntəsərrüfat işləri ilə məşğul olduqları, mal-qara örüşlərinin yerləşdiyi əkin sahələrinə, yaylaqlara təzə avtomobil yolu salınıb və bulaqlar quraşdırılıb. Bu xeyirxah insanla söhbət əsnasında məlum oldu ki, yaxın vaxtlarda Çanaqçı kəndində kənd sakinlərinin istirahət etməsi üçün yeni park salınacaq, həmin parkda "Şəhidlər bulağı" inşa ediləcək, abadlıq və yaşıllaşdırma işləri aparılacaq.

Odlar yurdunun cənnət diyarı, Gədəbəy rayonunun Çanaqçı kəndindən olan bu xeyriyyəçilərin bu xeyirxah addımlarına qonşu Nərimankənd kəndinin və digər qonşu kəndlərin də iş adamları da qoşulublar. Artıq həmin kəndlərdə vaxtaşırı xeyriyyə tədbirləri həyata keçirilir və müxtəlif istiqamətdə abadlıq, təmir-quraşdırma işləri aparılmasına başlanılıb.

**Elman Malıyev,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 442



## Dağıntılar altında qalan tələbənin evindən çıxanlar...

**Xəbər verdiyimiz kimi, Malatyada dağıntılar altında qalan azərbaycanlı tələbələrin axtarışları davam edir.**

Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar öz tviter hesabında dağıntılar altında qalan tələbələrdən biri Gündüz Nəzərzadənin evindən çıxan əşyaların fotosunu paylaşıb.

Fotoda G.Nəzərzadənin evindən Azərbaycan və Türkiyə bayraqları, eləcə də "Qurani-Kərim" kitabının tapıldığı əks olunub.

## Cenk Tosunun formasını istəmişdi

Futbolçu dağıntılar altından sağ çıxan uşaqla görüşdü



**Kahramanmaraşda zəlzələdən zərər çəkən uşaqlara dəstək davam edir. "Beşiktaş"ın futbolçusu Cenk Tosun iki gün öncə dağıntılar altından çıxan balaca Cavidlə telefonla görüntülü danışıb və forma vəd edib.**

Nəhayət, Cenk və həyat yoldaşı Ece Tosun dünən Cavidi müalicə aldığı xəstəxanada ziyarət edib. Ağ-qara imzalı formasını balaca azarkeşə hədiyyə edən milli futbolçu sosial media hesabında paylaşdığı şəklin üzərinə "Qardaşım Cavidlə görüşdük" yazıb.

**Turan**

## Fahriye sağ çıxan uşağa səsləndi

"Bütün dünya bir araya gəlsə, onun yerini verə bilməz..."



**Bütün Türkiyəni sarsıdan Kahramanmaraş mərkəzli zəlzələlərdən sonra çox sayda insan zəlzələ qurbanları üçün hərəkətə keçib.**

Zəlzələdən əziyyət çəkənlərə maddi və mənəvi dəstək olanlar arasında məşhur adlar da var. "Şərq" türk mediasına istinadən xəbər verir ki, həyat yoldaşı Burak Özçivitlə xeyriyyə işlərinə qatılan Fahriye Evcen sosial şəbəkədəki son paylaşımından təsirlənib. İki uşaq anası Fahriye Evcen zəlzələ qurbanı olan uşağın fotosu ilə emosional mesaj paylaşıb.

Evcenin paylaşımında "Öpərəm sənin o balaca əllərindən... Kaş anan tapılsaydı, çünki bütün dünya bir araya gəlsə, onun yerini verə bilməz... Binaları tikərkən ümid edirəm ki, bu görüntülər gözünüzdən və vicdanınızdan silinməyəcək...".

Burak Özçivit və Fahriye Evcen cütlüyünün zəlzələ bölgəsinə bir TIR paltar və yemək göndərməsi, AFAD və digər yardım təşkilatlarına 600 min TL ianə verməsi bildirilib.

Cütlük sosial mediada canlı yayımlar vasitəsilə də ianə toplayır.

**Turan**

## Kraliça Kamilla koronavirusa yoluxub



**Böyük Britaniya kralı III Çarlzın həyat yoldaşı, kraliça konsort Kamilla koronavirusa yoluxub.**

**Oxu.az xəbər verir ki, bu barədə bazar ertəsi Bukingem Sarayı məlumat yayıb.**

**Məlumata görə, 75 yaşlı kraliçada soyuqdəymə əlamətləri müşahidə olunub və onun koronavirus üçün testi müsbət çıxıb.**

## "Survivor" iştirakçısının da sevgilisi həlak oldu



**"Survivor" yarışmasının iştirakçılarından olan Aşkım Burçe Tunayın da sevgilisi Kahramanmaraşda baş verən zəlzələdə dağıntılar altında qalaraq həlak olub.**

**Axşam.az xəbər verir ki, bu barədə Tunay sosial media hesabında yazaraq sevgilisi Yiğit Can Datlının həyatını itirdiyini bildirib.**

**"Allah deyir ki, kimi məndən çox istəyərsən, onu səndən alaram. Və əlavə edir ki, "onsuz yaşamaram" demə, səni onsuz da yaşadaram... Yarım qalmadıq. Söz verirəm, məhşərə qaldıq. Üzünü görməyə əvvəl cəsarət etmədim. Əslində özümü aldatma şəklim idi. Çünkü üzünü görsəm yaşamadığına inanmaq məcburiyyətində qalcaqdım" deyə, Tunay paylaşımında yazıb.**

## Müğənninin 25 qohumu zəlzələdə həyatını itirib



**Türkiyədə baş verən güclü zəlzələ nəticəsində yaxınlarını itirən məşhurlar arasında "Kahtalı Mıçe" ləqəbi ilə tanınan Mustafa Aslan da var.**

**Axşam.az xəbər verir ki, "2. sayfa"nın məlumatına görə, zəlzələdə sənətçinin 25 qohumu həyatını itirib.**

**Mustafa hələlik onlarla bağlı hər hansı açıqlama verməyib.**



# Protein tozuyla həyatda qaldılar

## 198 saat sonra dağıntılar altından çıxan 2 qardaş üzləri güldürdü

**Kahramanmaraş zəlzələsindən 9 gün - 198 saat sonra dağıntılar altından çıxarılan 17 yaşlı Muhammed Enes və böyük qardaşı, 21 yaşlı Əbdülbaqi Yeninar həyatda necə qala bildiklərini anladıb. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, Əbdülbaqi "daxilən rahat idim. Xilas ediləcəyimi bilirdim. Dua edirdim. Dağıntılar altındaydıq, amma hava gəlirdi.**

O havanı sinəmə çəkdikcə çəkmək istəyirdim", söyləyib. Əbdülbaqi 9 gün dağıntılar altında həyata bağlanmalarına səbəb olan vasitə barədə də danışıb: "Qardaşım əzələ yığmaq üçün protein tozu almışdı. Qidalandırıcıdı. Ondan istifadə etdik". Mühammed Enes dağıntılar altından çıxarıldıqdan sonra anasını soruşub: "Anam necədi? Ondan nigaranıq. Zəlzələ baş verəndən sonra qardaşımla 2 gün ağladıq. Sonra bir yerdə böyüdüyümüz zamanları xatırlamağa, başımıza gələnlərdən bir-birimizə danışmağa başladıq", - deyib. Qardaşlar Kahramanmaraş "Pınar" adı verilmiş yaşayış binasının sakinidirlər. Ərazidə çalışan xilasedicilər və mədənçilər dağıntılar altından səs gəldiyini eşidib, çalışmalara başlanılıb. Mədənçilər dağıntılar altındakı insanlara xilas yolu olan "donuz damı" üsulunu yenə tətbiq edərək 2 qardaşı da çıxara biliblər. Həkimlər qardaşların sağlamlığının qənaətbəxş olduğunu bildirib. Qardaşların anası da 2 gün əvvəl dağıntılar altından çıxarılıb, ayaqlarında yara olduğu üçün xəstəxanaya yerləşdirilib. Qohumları isə onların zəlzələdə həlak olduğunu zənn edib, cənazələrinin çıxarılmasını gözləyirmiş. 2 qardaşın dağıntılar altından sağ çıxarılması bütün ölkəni sevindirib.





**Məlahət**



# Hatay küçələrində səssiz bir türkü

## Bəstə adlı qızcığaz Hatayın direniş rəmzinə çevrilib

**Kahramanmaraşın zəlzələdən dağıntılara ən çox məruz qalmış bölgəsi Hatayda küçələr səssizliyə bürünüb. Bu səssizliyi zaman-zaman insanların sevinc sədaları pozur. Bu isə kimsə dağıntılar altından çıxarılarkən baş verir. Zərərçəkmişlər üçün qurulmuş çadırlarda da insanlar kədərli, qəmqüssə içindədir.**

Təkcə öz dünyaları olan körpələrdən, uşaqlardan başqa. Uşaqlar dağıntılar altından oyuncaqlar tapır, sevinirlər. Bu uşaqlar arasında Bəstə adlı qızcığaz isə Hatayın direniş rəmzinə çevrilib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Bəstə uçulmuş binaya aid parkda atasıyla dolaşarkən görüntülənib. Atası "qızımın psixologiyası pozulub, yata bilmir" söyləyib. Bəstənin ailəsi də zəlzələdən sonra çadırda məskunlaşıb. Qızcığazın atası "biz əşya istəmirik, dəstək istəyirik. İnsanlar yanımıza gəlsin. Onlardan güc alaq. Heç nə istəmirik. Amma qorxuruq. Yanımza gələn olanda, güclənirik, "bizi düşünən var", deyə. Hataya gəlin, Hatay kimsəsiz qalıb. Lütfən, gəlin, bizə dəstək olun. Burda insan görək, insanların bizi düşündüyünü, dərdimizi bölüşdüklərini görək", deyib.

**Məlahət**

## Yardım üçün səfirliyə 30 milyon verdi, adını gizli saxladı



**Kahramanmaraşda baş verən zəlzələdə zərərçəkənlərə dünyanın dörd bir yanından yardımlar edilir.**

Axşam.az xəbər verir ki, türk mediası adının gizli saxlanıldığı bir şəxsin 30 milyon dollar ianə etməsindən yazıb. Bildirilib ki, həmin şəxs məbləği verdikdən sonra, sirr kimi yox olub.

Pakistanlı bir vətəndaşın etdiyi bu yardım haqda Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif tviterdə paylaşım edib. Hadisə ABŞ-da yaşanıb. Həmin şəxs Vaşinqtonda yerləşən Türkiyə səfirliyinə gələrək 30 milyon dollar bağışlayıb. Daha sonra adını belə demədən oradan uzaqlaşıb.

"Adı açıklanmayan bir pakistanlının ABŞ-da Türkiyə və Suriyada zəlzələdə zərərçəkənlərə 30 milyon dollar verməsindən təsirləndim. Bu hadisə xeyriyyəçilik işlərinə bir örnəkdir" deyə, Baş nazir paylaşımında qeyd edib.

## Bella Türkiyə və Suriya üçün yenidən yardım çağırışı edib



**Dünya şöhrətli Fələstin əsilli amerikalı supermodel Bella Hadid Türkiyə və Suriyadakı dəhşətli təbii fəlakətlə bağlı paylaşımı ilə diqqətləri üzərinə cəmləyib.**

Bizim media xəbər verir ki, 26 yaşlı model sosial şəbəkə hesabından iki ölkədə zəlzələ qurbanları üçün yeni ianə etməyə çağırış edib.

"Bu inanılmaz ölkələr və insanlar üçün dərin kədər içindəyəm. Bütün bədənimdə donma hissi var. Təsirlənən hər kəs üçün dua edirəm. Xəbər dəhşətlidir və bu, həqiqətən də sümüklərimi titrədir. Kömək etmək üçün yollar axtarıram", -deyə Bella vurğulayıb.

Hadid "Instagram" səhifəsində Türkiyə xəritəsi ilə məlumat xarakterli mətn dərc edib.

Bella yayımladığı postda bu sözləri əlavə edib:

"Fevralın 6-da Türkiyənin cənubunda və Suriyada 7,8 bal gücündə zəlzələ baş verdi. Bu, son onilliklərdə bölgəni vuran ən güclü zəlzələlərdən biri kimi qeydə alınıb. Bunun ardınca onsuz da siyasi qeyri-sabitlik və qaçqın böhranından kövrək olan bölgəni silkələməkdə davam edən güclü afterşoklar baş verdi.

30 mindən çox insanın öldüyü, minlərlə insanın yaralandığı zəlzələdən sonra zərərin qiymətləndirilməsi davam etdiyi üçün önümüzdəki günlərdə və həftələrdə bu rəqəmlərin əhəmiyyətli dərəcədə artacağı gözlənilir.

Şaxtalı soyuqlar ərazidə axtarış-xilasetmə işlərini daha da çətinləşdirir.

Hazırda ən ağır humanitar vəziyyət Suriyanın şimal-qərbindədir, burada bu fəlakətdən əvvəl bölgədə yaşayan 4,5 milyon insanın ən azı 4,1 milyonunun artıq humanitar yardıma ehtiyacı var idi. Qaçqın düşərgələri uçmaq təhlükəsi ilə üz-üzədir.

Türkiyə ilə Suriya arasında yeganə təchizat nəqliyyatı yolu zəlzələ nəticəsində dağılıb.

Bu inanılmaz ölkələr və insanlar üçün dərin kədər hissi keçirirəm. Yaxın gələcəkdə edə biləcəyim daha çox şey haqqında düşünürəm. Ancaq hələ ki, sizi bəzi etibarlı təşkilatlarla tərk edəcəyəm. Mən səni sevirəm".

Məşhur model, həmçinin izləyicilərinin kömək etməsini istədiyi təşkilatların (UNICEF, Suriyadakı Ağ Dəbilqəlilər, Suriya-Amerika Tibb Assosiasiyası, Beynəlxalq Tibb Assosiasiyası və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı) adlarını işarələyərək qeyd edib.

## 202 saat sonra 26 yaşlı qadın xilas edildi



**Türkiyənin Hatay vilayətində baş verən zəlzələdən 202 saat sonra binanın dağıntıları altından 26 yaşlı müəllim Əminə Akgül xilas edilib.**

Bu barədə "Hürriyet" məlumat yayıb.

Onun xəstəxanaya aparıldığı qeyd edilib.